

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 113 (8706) CÜMƏ AXŞAMI, 3 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Azərbaycanın qətiyyətinin və prinsipiallığının təntənəsi

**Dağlıq Qarabağ münaqişəsi artıq keçmişdə qalıb. İkinci Qarabağ müharibəsində Azərbaycan güc yolu ilə torpaqlarını işğaldan azad etdi. 44 günlük savaş Prezident İlham Əliyevin qətiyyətinin, dövlətimizin gücünün, xalqımızın həmrəyliyinin təntənəsi oldu. Eyni zamanda təsdiq olundu ki, heç bir təzyiq və ya təhdid Azərbaycanı özünün milli maraqlarını təmin etməsindən çəkindirə bilməz.**

### İlham Əliyev bütün təzyiqlərin qarşısını mətinliklə aldı

Müharibə bitsə də, Ermənistandakı revanşist qruplar xəstə təfəkkürlərinə görə hələ də reallığı dərk edə bilmirlər. Xaricdəki erməni təəssübkeşləri, müəyyən siyasi mərkəzlər, dövlətlər və təşkilatlar Azərbaycanın qələbəsini həzm edə bilmirlər. Amma onların müharibənin nəticələri ilə bağlı düşüncələri, fikirləri Azərbaycan üçün tamamilə əhəmiyyətsizdir. Əsas odur ki, Azərbaycan bu savaşın qalibidir. Prezident İlham Əliyevin mayın 28-də Ağdamda dediyi kimi: "İndi bəzi ermənipərəst ölkələr, dairələr hansısa açıqlamalar verirlər. Versinlər, onların öz işidir. Avropa Parlamenti növbəti dəfə saxta faktlar əsasında qətnamə qəbul edib. Mən heç ona fikir vermirəm. Sizə də məsləhət görmürəm, Azərbaycan xalqına da məsləhət görmürəm. Bunlar hamısı əhəmiyyətsiz şeylərdir. Əhəmiyyətli məsələ odur ki, bax biz bu gün buradayıq, burada oturmuşuq, burada durmuşuq və əbədi burada yaşayacağıq".

*Ardı 4-cü səh.*

# Azərbaycan-Çin münasibətləri yeni tarixi mərhələnin astanasındadır

**İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında telefon söhbəti olub.**



Dövlət başçıları COVID-19 pandemiyası dövründə Azərbaycan və Çinin həqiqi dostluq nümayiş etdirərək, çətinliklərin öhdəsindən gəldiklərini və bir-birini dəstəklədiklərini məmnunluqla qeyd ediblər. Prezident İlham Əliyev COVID-19 pandemiyası ilə mübarizədə dəstəyə görə ÇXR Sədrinə təşəkkürünü bildirib.

Qeyd olunub ki, Azərbaycan və Çin siyasi, iqtisadi və nəqliyyat-logistika sahələrində uğurla əməkdaşlıq edirlər. Dövlətimizin başçısı Azərbaycanın Çinlə əlaqələri daha da möhkəmləndirməyə hazır olduğunu qeyd edib və Çin şirkətlərinin Azərbaycanda fəaliyyətinin daha da genişləndirilməsini alqışlayıb.

Prezident İlham Əliyev Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə səmimi təbriklərini ÇXR Sədri Si Cinpinə çatdırıb.

Si Cinpin Çin-Azərbaycan münasibətlərinin yeni tarixi mərhələnin astanasında olduğunu vurğulayıb və bildirib ki, hər iki ölkə ənənəvi dostluğu inkişaf etdirir, əməkdaşlığı dərinləşdirir və qarşılıqlı dəstəyi artırır. ÇXR Sədri Azərbaycanın "Bir kəmər bir yol" təşəbbüsünün reallaşdırılması istiqamətində vacib tərəfdaş olduğunu və Çinin Azərbaycan xalqının seçdiyi inkişaf yolunu dəstəklədiyini vurğulayıb.

Dövlət başçıları qeyd ediblər ki, 2022-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi qeyd olunacaq və bu əlamətdar hadisə iki ölkə arasında əlaqələrin daha da inkişafına imkan yaradacaqdır.

Dövlət başçıları hər iki ölkənin "Bir kəmər bir yol" layihəsinin inkişafı çərçivəsində fəaliyyətlərin birgə əlaqələndirilməsinin və mövcud imkanlardan faydalanmağın əhəmiyyətinə toxunublar. Həmçinin iki ölkənin nəqliyyat və logistika sahəsində əməkdaşlığı dərinləşdirməsinin, Mərkəzi Asiya və Avropada nəqliyyat dəhlizlərinin yaradılmasını təşviq etməsinin zəruriliyi qeyd olunub.

Si Cinpin Çin şirkətlərinin Azərbaycana investisiya qoyuluşunu daha da təşviq etməyə, infrastruktur layihələri çərçivəsində əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını bildirib. Eyni zamanda o, Çinin Azərbaycandan yüksəkkeyfiyyətli xüsusi məhsulları idxal etmək niyyətində olduğunu vurğulayıb.

Söhbət əsnasında hər iki ölkənin hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin inkişafını təşviq etmək üçün birgə səylər göstərməyə hazır olduğu qeyd edilib.

Dövlət başçıları qarşılıqlı olaraq ölkələrinin ərazi bütövlüyü və suverenliyinə dəstəklərini ifadə ediblər.

Prezident İlham Əliyev 2022-ci ildə keçiriləcək Pekin Qış Olimpiya və Paralimpiya Oyunlarının təşkilində Çin Xalq Respublikasına müvəffəqiyyətlər arzulayıb.

***Prezidentin Mətbuat Xidməti***

# Ölkəmiz Avropa İttifaqı ilə əməkdaşlığa böyük əhəmiyyət verir

**İyunun 2-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Söhbət zamanı Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Hər iki tərəf bu əməkdaşlığa böyük əhəmiyyət verdiklərini açıqladılar. Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq, "Cənub qaz dəhlizi" layihəsinin başa çatması məmnuniyyətlə qeyd edildi.

Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra regionda təhlükəsizlik və sabitliyin təmin olunması məsələləri müzakirə olundu.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Avropa İttifaqının Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin, iki ölkə arasında etimad quruculuğu tədbirlərinin başlanmasına dəstək verməyə hazır olduğunu bildirdi. Şarl Mişel hər iki tərəfi saxlanılan şəxslər, tam şəffaflıq şəraitində mina və digər humanitar məsələlər üzrə əməkdaşlıq etməyə çağırdı. Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla sülh sazişinin imzalanması üçün danışıqlara başlamağa hazır olduğunu qeyd etdi, lakin Ermənistanın hələ də bu çağırışa cavab vermədiyini bildirdi. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel hər iki tərəfi konstruktiv mühitdə danışıqlar aparmağa çağırdı.

Telefon söhbəti zamanı hər iki tərəf Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin edilməsində maraqlı olduqlarını bildirdilər. Həmçinin Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının əhəmiyyəti vurğulandı və bu xüsusda qarşıdakı sammit ilə bağlı fikir mübadiləsi aparıldı.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan-UNESCO münasibətlərində yeni mərhələ



**Azərbaycan mədəniyyətlərin qovuşduğu bir məkandır. Bu qədim və gözəl diyar keçmişdə də, indi də görənləri heyran edir.**

Azərbaycanın tarixini və müasir inkişaf səviyyəsini, zəngin mədəniyyətini, incəsənətini, özünəməxsus milli-mədəni dəyərlərini dünyaya nümayiş etdirmək, tanıtmaq üçün mühüm addımlar atılır. Azərbaycanda son illər bir sıra mühüm layihələr həyata keçirilir, beynəlxalq tədbirlərə evsahibliyi edilir. Bu baxımdan ölkəmizin UNESCO-nun dəstəyi ilə reallaşdırdığı beynəlxalq tədbirlər də olduqca əhəmiyyətlidir.

### UNESCO-nun yaranması...

Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış olan bu qurumunun - UNESCO-nun proqramının birinci maddəsində qeyd olunub: "UNESCO beynəlxalq əməkdaşlığa söykənən, elm, mədəniyyət və təhsil yolu ilə dünyamızın sülh və təhlükəsizliyini qorumaq məqsədilə qurulmuşdur". Əsas məqsədi irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək, qanunvericilik və ədaləti, insanın əsas hüquq və azadlıqlarını təmin etmək olan UNESCO-nun Nizamnaməsi 1945-ci il noyabrın 16-da London konfransında qəbul edilib, 1946-cı ilin 4 noyabrında 20 üzv dövlətdən ibarət qurum rəsmi fəaliyyətə başlayıb. Hazırda 195 ölkə və 10 assosiativ üzvdən ibarətdir.

1972-ci ildə UNESCO tərəfindən "Ümumdünya Mədəni və Təbii İrsin Qorunması haqqında Konvensiya" qəbul olunub. 1980-ci illərin sonlarından başlayaraq UNESCO BMT-nin beynəlxalq mədəni əməkdaşlıq sahəsində xüsusi mandatına uyğun olaraq mədəniyyət sahəsində qlobal proseslər və onların yaratdığı risklərin proqnozlaşdırılması ilə bağlı informasiyanın toplanması, ümumiləşdirilməsi və müqayisəli təhlili üzrə çoxtərəfli iş həyata keçirir.

*Ardı 4-cü səh.*







# Sürətin Azərbaycan zirvəsi

### Bakı "Formula-1"in cari mövsümdə 6-cı mərhələsinə evsahibliyi edəcək

**"Formula-1" yarışlarının təşkilində nümunə göstərən Azərbaycan builki turnir də daxil olmaqla, daha üç il planetin sürət paytaxtı olacaq. 2016-cı ildən etibarən ölkəmizdə keçirilən "Formula-1" qran-prisi həm ölkəmizin tanıdılmasına, həm də iqtisadiyyatın inkişafına böyük töhfə verib. Sürət yarışı Azərbaycanın görməli və tarixi yerlərinin, istirahət-kurort imkanlarının, mükəmməl mətbəx və gözəl təbiətinin təbliğində, eləcə də ölkənin xidmət sektorunun inkişafında müsbət rol oynayıb.**

### "Formula-1" Azərbaycana milyonlarla dollar gəlir gətirib

Ümumilikdə, 2016-2019-cu illərdə "Formula-1" tədbirinin Azərbaycana ümumi xeyri 797 milyon dollar olub. Yarış bir sıra sahələrdə yeni iş yerləri yaratmaqla yanaşı, həm illik, həm də mövsümi məşğulluğu artırır. Belə ki, bu yarışlarla bağlı ölkədə minlərlə qısamüddətli və ortamüddətli iş yeri yaranmış, yarışların keçirildiyi vaxt köməkçi işlərə çoxlu sayda könüllü cəlb olunmuşdur.

İdmanın bu növünün özünəməxsus azarkeş ordusu olsa da, "Formula-1" ölkəmiz üçün yenidir. Azərbaycan qran-prisinin təşkilatçısı olan Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin uğurlu təbliğat kampaniyası ölkəmizdə "Formula-1" idmanını sevənlərin sayını artırıb. Azərbaycanın təbliğini qarşıya məqsəd qoyan Əməliyyat Şirkəti turistlərin ölkəmizə cəlb edilməsinə nail oldu.

*Ardı 7-ci səh.*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizi təbrik edirəm.

Azərbaycan xalqına sülh, firavanlıq və demokratik cəmiyyətin daha da möhkəmləndirilməsi işində uğur arzulayıram. İnanıram ki, Slovakiya ilə Azərbaycan arasındakı münasibətlər hər iki ölkənin vətəndaşlarının rifahı naminə inkişaf edəcəkdir.

*Hörmətlə,*

***Zuzana ÇAPUTOVA,***
***Slovakiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Zati-aliləri, Monqolustan ilə Azərbaycan arasında qarşılıqlı maraq doğuran sahələrdə əlaqələri genişləndirmək məqsədilə göstərdiyimiz birgə səylərin hökumətlərimiz arasında ticarət və iqtisadiyyat, eləcə də hava daşımaları, ərzaq təhlükəsizliyi və enerji sahəsində ikitərəfli sənədlərin imzalanmasına imkan yaratdığını qeyd etməkdən məmnunluq duyuram.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Xaltmaaqiyn BATTULQA,***
***Monqolustanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Dost Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, Sizə uzun ömür, xoşbəxtlik və uğurlar, Azərbaycana və dost xalqınıza davamlı inkişaf və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Məşəl əl-Əhməd əl-Cabir ƏL-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

❖ ❖ ❖

Əs-səlamualeykum və rəhmətullahi və bərəkətuhu.

Zati-aliləri.

Fürsətdən istifadə edərək milli bayramınız - Respublika Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Cənab Prezident, ölkələrimiz arasında səmimi dostluğa çox yüksək dəyər verir, əməkdaşlıq əlaqələrimizin həm ikitərəfli, həm də beynəlxalq səviyyədə daha da inkişaf etdiriləcəyinə ümid edirəm.

Sizə ən dərin ehtiramımı və xoş arzularımı çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq diləyir, həm də Ramazan bayramınızı təbrik edirəm.

Vəssəlamualeykum və rəhmətullahi və bərəkətuhu.

***Hacı Həssənal BOLKİAH,***
***Bruneyin Sultanı***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin müstəqilliyinin 103-cü ildönümü - Respublika Günü münasibətilə zati-alinizə və Azərbaycan xalqına öz adımdan və kraliça adından ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırıram.

Mən məmnuniyyətlə qeyd edirəm ki, Malayziya və Azərbaycan hər zaman yaxın, səmimi münasibətlərdə olublar. Malayziya qarşılıqlı faydalı əməkdaşlığı və tərəfdaşlığı gücləndirmək üçün Azərbaycanla sıx işləməyə hazırdır.

Allah-təala zati-alinizə möhkəm cansağlığı, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikasına və onun xalqına sülh və firavanlıq bəxş etsin.

***Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şahibni Sultan Hacı Əhməd Şah əl-Mustain BİLLAH,***
***Malayziyanın Kralı***

❖ ❖ ❖

Cənab Prezident.

Zati-alinizə və dost Azərbaycan xalqına Respublika Günü münasibətilə ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyur, Sizə möhkəm cansağlığı və səadət, xalqınıza isə tərəqqi və firavanlıq arzu edirəm.

Bu əlamətdar gündə Uca Allahdan diləyim budur ki, dost Azərbaycan xalqına davamlı inkişaf, sabitlik və firavan gələcək nəsib etsin.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Yunis ƏL-MƏNFİ,***
***Liviya Prezident Şurasının sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümü - Respublika Günü münasibətilə San-Marino xalqı adından və şəxsən öz adımızdan Sizə və dost Azərbaycan xalqına ən xoş arzularımızı çatdırırıq.

Zati-aliləri, bu əlamətdar gündə Sizə ən yüksək ehtiramımızı bildirir, uğurlar arzulayır, Azərbaycan xalqına isə firavanlıq və rifah dolu gələcək diləyirik.

*Hörmətlə,*

***Cian Karlo Venturini və Marko NİKOLİNİ,***
***San-Marino Respublikasının Kapitan-Regentləri***

❖ ❖ ❖

Zati-aliləri.

Dost ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək dost ölkələrimiz və xalqlarımız arasında mövcud olan möhkəm əlaqələrin davamlı olaraq inkişaf etməsi ilə bağlı səmimi arzularımızı bildirirəm.

Zati-aliləri, Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycana və onun dost xalqına davamlı tərəqqi, firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Nəvaf əl-Əhməd əl-Cabir ƏL-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü və Xalq Cümhuriyyətinin yaranmasının 103 illiyi münasibətilə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan zati-alinizi və Sizin simanızda bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Xalq Cümhuriyyətinin varisi olan müasir və müstəqil Azərbaycan xalqın azadlıq, öz taleyinin sahibi olmaq, beynəlxalq birliyin tamhüquqlu və qürurlu üzvünə çevrilmək arzularını uğurla reallaşdırır.

Bu gün Azərbaycan dünyada davamlı inkişaf edən, geostrateji əhəmiyyəti getdikcə artan bölgədə ən dinamik iqtisadiyyata malik, nüfuzlu dövlətlərdən biri kimi tanınır. Azərbaycanın milli maraqlara, beynəlxalq hüquq normalarına və prinsiplərinə, eləcə də mehriban qonşuluq münasibətləri ənənələrinə və dəyərlərinə əsaslanan fəal, sülhsevər, balanslaşdırılmış, çoxşaxəli və konstruktiv xarici siyasəti ona beynəlxalq aləmdə böyük nüfuz qazandırıb. Azərbaycanın siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə beynəlxalq səviyyədə tanınan rolu ölkənin qlobal və regional təşkilatlarda tutduğu qabaqcıl mövqelərində öz təsdiqini tapıb.

Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu strateji layihələr regionun geosiyasi coğrafiyasını tamamilə dəyişərək, onu yeni yaranmaqda olan qlobal enerji və nəqliyyat-kommunikasiya şəbəkəsinin ayrılmaz hissəsinə çevirib. Bu da beynəlxalq sülh və təhlükəsizlik, eləcə də sabitlik və firavanlığın təmin olunmasına töhfə verib.

2020-ci ilin noyabrında Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin qazandığı şanlı Qələbə nəticəsində ölkənin ərazi bütövlüyünün bərpa olunması ilə bölgədə yeni bir dövr başladı. Yaranan bu bənzərsiz vəziyyət Xəzər dənizi və Qara dəniz hövzələri ölkələrini əhatə edən, həddindən çox böyük potensiala malik coğrafi ərazidə davamlı inkişaf və hərtərəfli əməkdaşlıq üçün geniş perspektivlər açır.

Biz bir neçə gün əvvəl 15 illiyini qeyd edən, qurucularından biri olan Azərbaycanın Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilata - GUAM-a üzv və tərəfdaş ölkələrin, dost xalqların arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsindəki rolunu yüksək dəyərləndiririk. Sizi əmin etmək istəyirik ki, biz tamhüquqlu regional təşkilat olaraq bu geniş coğrafi ərazidə sülhün, əməkdaşlığın və davamlı inkişafın təşviqinə yönəlmiş layihələrin və təşəbbüslərin həyata keçirilməsində fəal iştirak etməyə hazırıq.

Cənab Prezident, icazə verin, bu əlamətdar bayram münasibətilə zati-alinizi bir daha təbrik edim, işğaldan azad edilmiş ərazilərin bərpasında Sizə uğurlar, Azərbaycana və onun xalqına yeni qələbələr, nailiyyətlər, sülh, tərəqqi və rifah arzulayım.

Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***



# Milli Məclisin sədri İƏT PA-nın iclası çərçivəsində türkiyəli həmkarı ilə görüşüb

**İyunun 2-də Milli Məclisin sədri Sahibə Qafarova İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Pakistanda keçirilən İkinci Ümumi Konfransı çərçivəsində Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntopla görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlıq, siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə münasibətlərin dərinləşdirilməsi, parlamentlərarası əlaqələrin gələcək inkişaf istiqamətləri barədə fikir mübadiləsi aparılıb. Söhbət zamanı iki qardaş ölkənin parlament sədrləri regional əməkdaşlığın əhəmiyyətini qeyd ediblər.

TBMM-in sədri Mustafa Şəntop 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı möhtəşəm Qələbə münasibətilə bir daha təbriklərini çatdırıb.

Milli Məclisin sədri Sahibə Qafarova, öz növbəsində, Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə Türkiyə tərəfinə minnətdarlığını ifadə edib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Hər iki xalq arasındakı oxşar dini və mənəvi dəyərlər əlaqələrin dərinləşməsinə imkan yaradır

İyunun 1-də Milli Məclisin sədri Sahibə Qafarova İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) İslamabadda keçirilən tədbirində iştirak edən Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Sahibə Qafarova Azərbaycan və Özbəkistanın dost ölkələr olduğuna diqqət çəkərək, xalqlarımız arasındakı oxşar dini və mənəvi dəyərlərin əlaqələrimizin daha da dərinləşməsinə yaxşı imkan yaratdığını söyləyib. Bildirilib ki, müstəqillik əldə etdikdən sonra münasibətlərimizin keyfiyyətcə yeni səviyyəyə qalxmasında dövlət başçılarının qarşılıqlı səfərləri və aparılan danışıqlar əhəmiyyətli rol oynayıb. Yüksəksəviyyəli siyasi dialoq digər sahələrdə də münasibətlərimizin inkişafına müsbət təsirini göstərib. Görüşdə 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın qazandığı möhtəşəm Zəfər barədə danışan Milli Məclisin sədri ölkəmizin BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz gücü ilə reallaşdırdığını bildirib. O, qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı azad edib. İndi isə bu ərazilərdə bərpa və quruculuq dövrü başlayıb. Reallıqlarla barışmaq istəməyən Ermənistan minalanmış ərazilərin xəritəsini verməkdən imtina edir, sərhədlərin delimitasiyası məsələsində təxribatlara əl atır. Bütün bunlara baxmayaraq, Azərbaycan qarşısına qoyduğu məqsədlərə doğru inamla addımlayır.

Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilov Milli Məclisin sədri ilə görüşdən məmnunluğunu ifadə edib. Bildirib ki, Özbəkistanda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin əlaqələrimizin inkişafındakı xidmətlərini yüksək qiymətləndirir və xatirəsini əziz tuturlar.

Söhbət zamanı bildirilib ki, Özbəkistan ictimaiyyəti Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi uğurlardan yaxşı xəbərdardır və Qafqazın bu bölgəsində baş verən prosesləri yaxından izləyir.

Nurdinjon İsmoilov siyasi, iqtisadi və humanitar sahələrdə münasibətlərimizin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. O, hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. Bildirilib ki, deputatların qarşılıqlı səfərləri tərəfləri düşündürən məsələlərin müzakirəsi baxımından çox önəmlidir.

Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri və digər məsələlər barədə də danışılıb.

# Azərbaycan-Əfqanıstan parlamentlərarası əlaqələri yüksələn xətlə inkişaf edir

İyunun 2-də Milli Məclisin sədri Sahibə Qafarova İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İkinci Ümumi Konfransı çərçivəsində İslamabadda Əfqanıstan İslam Respublikası Milli Assambleyasının Xalq Palatasının sədri Mir Rahman Rahmani ilə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, söhbət zamanı Milli Məclisin sədri Azərbaycan və əfqan xalqları arasında tarixən dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu söyləyib. Bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlib. İki ölkə arasında əlaqələrin dərinləşməsində dövlət başçılarının görüşləri və aparılan danışıqlar mühüm rol oynayıb.

Parlamentin sədri 44 günlük Vətən müharibəsində, eləcə də artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin bütün dövrlərində Əfqanıstanın Azərbaycanın haqlı mövqeyini birmənalı şəkildə dəstəkləməsindən razılıqla danışıb. Qeyd edib ki, Əfqanıstanın dövlət strukturlarının, o cümlədən Milli Assambleyanın Ağsaqqallar Şurasının və Xalq Palatasının Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyən bəyanatları Azərbaycan tərəfindən yüksək qiymətləndirilir. Sahibə Qafarova bu haqlı mövqeyə və dəstəyə görə həmkarına və Əfqanıstan xalqına minnətdarlığını ifadə edib. Milli Məclisin sədri hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyət göstərməsinin qanunverici orqanlar səviyyəsində əlaqələrimizin inkişafı baxımından önəmini vurğulayıb. Əfqanıstan İslam Respublikası Milli Assambleyasının Xalq Palatasının sədri Mir Rahman Rahmani bildirib ki, bu gün ölkələrimiz arasında siyasi münasibətlərlə yanaşı, həyatın digər sahələrində də əlaqələr yüksək səviyyədədir. Xalqlarımız arasında tarixən mövcud olan ənənəvi dostluq münasibətləri əməkdaşlığımızın dərinləşməsində əhəmiyyətli rol oynayır.

Parlamentlər səviyyəsində əlaqələrimiz də yüksələn xətlə inkişaf etməkdədir. Deputatların qarşılıqlı səfərləri, onların müxtəlif beynəlxalq qurumlar çərçivəsində mütəmadi görüşləri tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından önəmlidir.

Qeyd edilib ki, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlarda nümayəndə heyətlərinin bir araya gəlməsi regional layihələrin reallaşmasına təkan verə bilər.

Söhbət zamanı beynəlxalq parlament qurumları çərçivəsində əməkdaşlıq, parlamentlərarası əlaqələrin inkişafı, terrorizmə qarşı mübarizə və digər mövzularda fikir mübadiləsi aparılıb.

# *Sahibə QAFAROVA:* "İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İkinci Ümumi Konfransı çox uğurlu keçdi"






Milli Məclisin sədri Sahibə Qafarova Pakistan İslam Respublikasına səfəri çərçivəsində iyunun 2-də İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) İslamabadda keçirilən İkinci Ümumi Konfransında yekun çıxış edib.




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin sədri bu konfransı İƏT PA-nın hədəfləri baxımından çox səmərəli və uğurlu hesab etdiyini diqqətə çatdırıb. Sahibə Qafarova belə yüksəksəviyyəli tədbirin keçirilməsinə və göstərilən qonaqpərvərliyə görə Pakistan parlamentinin sədri Əsəd Qeysərə və katibliyin üzvləri də daxil olmaqla, Pakistan parlamentinin bütün üzvlərinə təşəkkür edib. O, həmçinin Əfqanıstandan olan həmkarını bu ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının növbəti - üçüncü Ümumi Konfransına evsahibliyi etmək qərarı münasibətilə təbrik edib, həmkarına növbəti konfransda uğurlar arzulayıb.

Milli Məclisin sədri bildirib ki, İkinci Ümumi Konfrans parlamentlərimizin İƏT-ə üzv ölkələr arasında inteqrasiya proseslərinə daha çox dinamizm verilməsinin zəruriliyinə dair ortaq mövqelərini müəyyənləşdirmək baxımından çox əhəmiyyətli oldu. Konfransın nəticələri təşkilat üzvlərinin bölgələrimizdəki tərəfdaşlıq və əməkdaşlıq proseslərini inkişaf etdirmək əzmində olduqlarını bir daha nümayiş etdirdi. Milli Məclisin sədri konfrans çərçivəsində parlament nümayəndə heyətləri arasında keçirilmiş görüşlərdən məmnunluğunu ifadə edib. Bildirib ki, iki gün ərzində davamlı inkişaf məqsədləri, ticarət və qarşılıqlı əlaqələr, turizm sahəsində əməkdaşlıq, yoxsulluğun azaldılması, siyasətdə qadınlar, iqlim dəyişiklikləri, COVID-19 qlobal pandemiyasına qarşı mübarizədə birgə səylərin gücləndirilməsi, eləcə də hamını maraqlandıran müxtəlif mövzularda dərin və əhatəli müzakirələr aparıldı.

Milli Məclisin sədri yekun nitqinin sonunda gələcəkdə ölkələrimizin daha da inkişafı və xalqlarımızın rifahı üçün yeni fürsətlərin yaranacağına əminliyini bildirib, təşkilat üzvlərinə gələcək işlərində uğurlar arzulayıb.

Tədbirdə İkinci Ümumi Konfransın yekunlarına dair İslamabad Bəyannaməsi imzalanıb.

# *Nazirlər Kabineti:* "Açıq havada və şəxsi avtomobillərdə tibbi maskadan istifadə edilməsi tələb olunmur"

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarı ilə açıq havada tənəffüs yollarını qoruyan fərdi vasitələrdən məcburi istifadə olunmasına dair tələb ləğv olunub.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmçinin qanunvericiliyə əsasən, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişindaşımada istifadə olunan nəqliyyat vasitələri (avtobus, taksi, metro, dəmir yolu və s.) istisna olmaqla, şəxsi avtomobillərdə tibbi maskadan istifadə tələb edilmir.

Eyni zamanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 29 may tarixli 189 nömrəli Qərarına əsasən aşağıda qeyd edilən hallarda sosial məsafəni gözləmək (insanlararası məsafə 1,5-2 metr) şərti ilə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadə edilməlidir:

- şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişindaşımada istifadə olunan nəqliyyat vasitələrində (avtobus, taksi, metro, dəmir yolu və s.);
- qapalı bazarlarda, qapalı ictimai iaşə, ticarət və xidmət obyektlərində (həmin obyektlərdə göstərilən xidmət növündən asılı olaraq tənəffüs yollarını qoruyan fərdi vasitələrin çıxarılmasının zəruri olduğu hallar istisna olmaqla);
- dövlət orqanlarının (qurumlarının) binalarında vətəndaşların qəbulu və vətəndaşlara xidmət üçün nəzərdə tutulan sahələrdə;
- fiziki və hüquqi şəxslərə məxsus binaların müştərilərə xidmət göstərilməsi üçün istifadə edilən sahələrində;
- açıq sahəli ofislərdə və istehsalat yerlərində;
- tarix və mədəniyyət abidələri hesab edilən qapalı məkanlarda, ibadət yerlərində, elm və səhiyyə müəssisələrində, sosial, mədəniyyət və digər bu kimi qapalı obyektlərdə;

Tənəffüs yollarını qoruyan fərdi vasitələrin istifadəsi yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı digər qoruyucu tədbirləri (gigiyena, sosial məsafə və s.) əvəz etmir və həmin qoruyucu tədbirlərin görülməsi davam etdirilməlidir.

# Ölkədaxili uçuşlar zamanı sərnişinlərdən COVID-19-a dair PCR test barədə arayış tələb olunmayacaq

## Azərbaycanda uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti qaydalarda dəyişikliklər edilib

Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti qaydalarda dəyişikliklər olunub.

AZƏRTAC Nazirlər Kabinetinin 156 nömrəli Qərarına dair izahını təqdim edir.

Dəyişikliklərə əsasən:

1) Azərbaycan Respublikasına uçuşlar icra edən bütün aviadaşıyıcılar hava gəmisində bütün sərnişinlərə "Özünütəcrid barədə bəyannamə"nin paylanmasını təmin edirdilər və Azərbaycan Respublikasına gəldikdən sonra pasport nəzarətindən keçərkən həmin Bəyannamənin doldurulmasının və təqdim edilməsinin zəruriliyi barədə məlumat verirdilər.

Artıq Azərbaycan Respublikasına uçuşlar icra edən bütün aviadaşıyıcılara qoyulan bu tələb ləğv olunur və həmin bəyannaməyə ehtiyac yoxdur.

2) Artıq ölkədaxili uçuşlar zamanı sərnişinlərdən COVID-19-a dair PCR test barədə arayış tələb olunmur.

Eyni zamanda ölkədaxili uçuşlar vasitəsilə Heydər Əliyev Beynəlxalq Aeroportuna gələn sərnişinlərdən tibbi personal tərəfindən COVID-19-a dair PCR testlərin keçirilməsi məqsədilə yaxmalar götürülür.

# Koronavirusdan daha 378 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 378 nəfər müalicə olunaraq sağalıb, 156 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 334 min 288 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 325 min 418 nəfər müalicə olunaraq sağalıb, 4926 nəfər vəfat edib. Aktiv xəstə sayı 3944 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 532 min 472 test aparılıb. Dünənki test sayı isə 8834-dür.




# İyunun 2-də Azərbaycanda koronavirusa qarşı 54 mindən çox vaksin vurulub

İyunun 2-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 54 min 379 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 47876, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 6503 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 2 milyon 367 min 94-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 1 milyon 452 min 774, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 914 min 320 nəfərdir.




# Koronavirusa qarşı aparılan sistemli mübarizə effektiv nəticəsini verir



Koronavirus infeksiyası yayılmağa başladıqdan sonra maska, tibbi ləvazimatlardan istifadə həyatımızın bir parçasına çevrildi. Virusun qısa zamanda geniş yayılması dünyanı iflic vəziyyətinə gətirdi.

COVID-19 infeksiyası dünyada yalnız səhiyyədə deyil, eləcə də bütün sahələrdə fəlakətlərə səbəb oldu. Nəticə etibarı ilə dünyada iqtisadiyyat sahəsində baş verən böhran əksər ölkələri ciddi maliyyə itkilərinə məruz qoydu, 120-dən artıq ölkə Beynəlxalq Valyuta Fondundan və digər beynəlxalq təşkilatlardan borc almağa məcbur oldu.

Azərbaycan bu çətin vəziyyətdən də üzüağ çıxdı. Prezident İlham Əliyevin göstərişinə əsasən, Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Qərargah tərəfindən çevik qaydada qərarların qəbul edilməsi, hökumət tərəfindən atılan addımlar nəticəsində pandemiyanın təsirləri minimuma endirildi.

Pandemiyaya qarşı mübarizə çərçivəsində Prezident İlham Əliyev tərəfindən Cənubi Qafqazda ilk olan tibbi maska istehsal edən müəssisənin açılması, tibbi və gigiyenik məhsulların istehsalı ölkəmizin idxaldan asılılığını birdəfəlik aradan qaldırdı. Habelə modul tipli xəstəxanaların qısa müddət ərzində qurulması, Yeni Klinikanın açılması pandemiyaya qarşı mübarizədə mühüm addımlar oldu. Hazırda ölkəmizdə koronavirus xəstələri üçün nəzərdə tutulmuş 10 mindən artıq yataq yeri var.

Ölkəmizdə xəstəliyin yayılmasının qarşısının alınması məqsədi ilə atılan məqsədyönlü addımlar Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən xüsusi qeyd edildi. Azərbaycan pandemiyaya qarşı mübarizədə ən qabaqcıl ölkələrdən biri oldu və bu sahədə görülən işlər digər dövlətlərə nümunə göstərildi.

Aparılan sistemli işlər çərcivəsində gəlirlərini itirmiş vətəndaşlara birdəfəlik maddi yardımlar edildi, habelə sahibkarlıq sahəsində ziyan çəkmiş hüquqi şəxslərə dövlət tərəfindən zəruri dəstək tədbirləri həyata keçirildi. Dövlət tərəfindən vətəndaşlara birdəfəlik maddi yardım verilməklə yanaşı, tələbələrin təhsil haqlarının ödənilməsi də daxil olmaqla bütün sahələrin dəstəklənməsi nəzərdə tutulmuşdur. Vətəndaşların güzəranlarının yaxşılaşdırılması, iqtisadi subyektlərə dəstək olmaq məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketi qəbul edildi.

Habelə xəstəliyə qarşı mübarizə çərçivəsində ölkəmiz vaksini əldə edən ilk ölkələrdən oldu. Dərhal peyvəndləmə prosesinə başlanmış, bu günə qədər əhalinin 20 faizindən çoxuna vaksin vurulmuşdur. Görülən sistemli işlər, atılan məqsədyönlü və ardıcıl addımlar effekt verdiyi üçün artıq xüsusi karantin rejimi ölkəmizdə yumşaldılmağa başlamışdır. Yanvar ayının ortalarından etibarən peyvənd kampaniyası başlanıb və 2 milyon doza peyvənd bu günə qədər istifadə edilib. Peyvənd olunanlara COVID-19 pasportları təqdim edilir.

Koronavirusun qarşısının alınmasında yeganə üsul vaksinləşmədir. Təəssüf ki, bəzi ölkələr öz imtiyazlarından sui-istifadə edərək vaksinlərin böyük əksəriyyətini ələ keçirərək digər kasıb ölkələrin vəziyyətini daha da ağırlaşdırmışdır. Davam edən "peyvənd millətçiliyi" ölkələr arasında vaksinin əldə edilməsində çox ciddi uçurumların olmasını göstərir. Belə ki, peyvəndlərin əldə edilməsi ilə bağlı olan qeyri-bərabərlik nəticəsində peyvənd dozalarının 82 faizi zəngin, yalnız 0,3 faizi azgəlirli ölkələrin payına düşmüşdür. Burada mühüm məqam odur ki, bəzi ölkələrin bu hərəkəti nəticəsində aztəminatlı ölkələrdə əhalinin xəstəlikdən ölməsi qaçılmaz olacaqdır. Baxmayaraq ki, bu xəstəliyin qarşısının alınmasında dünya ölkələrinin birgə mübarizəsi əsas xətti təşkil etməlidir.

Xəstəliyin yayılmasının qarşısının alınması, səhiyyə sisteminin daha da yaxşılaşdırılması məqsədilə ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı etmiş, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir. Habelə Azərbaycan Qoşulmama Hərəkatının sədri olaraq bəzi ölkələrin vaksin sahəsində apardığı inhisarçı siyasəti pisləyən, habelə vaksinin ədalətli bölgüsünü tələb edən tarixi bir missiyaya imza atmışdır. 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və dekabr ayında 150-dən artıq dövlətin təşəbbüsümüzü dəstəkləməsi nəticəsində keçirilən BMT Baş Assambleyasının Xüsusi Sessiyasında pandemiyaya qarşı birgə mübarizə aparmağın zəruriliyi bildirilmişdir.

Artıq pandemiya ilə bağlı çətin vəziyyət arxada qalmaq üzrədir, yeni yoluxmaların qarşısının alınması, habelə qısa zaman kəsiyində əvvəlki həyatımıza qayıdış yalnız bizdən asılıdır. Vaxtında vaksini vurdursaq, habelə Operativ Qərargahın tövsiyələrinə əməl etsək, tezliklə ölkə olaraq COVID-19-a qalib gələrik.

***Adil ƏLİYEV,***
***Milli Məclis sədrinin müavini,***
***Gənclər və idman komitəsinin sədri***

# Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında 7 məsələyə baxılıb

İyunun 2-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, komitənin sədri Musa Quliyev iclasın gündəliyinə birinci oxunuşda 7 məsələnin daxil edildiyini bildirib. Qeyd edib ki, bunlar "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda, Əmək Məcəlləsində, Mülki Məcəllədə, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Mənzil Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Torpaq Məcəlləsində dəyişiklik edilməsi barədə, həmçinin "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərərçəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə; "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Sosial sığorta haqqında", "Polis haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Psixiatriya yardımı haqqında", "İcbari sığortalar haqqında" və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə; "Dövlət qulluğu haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələridir.

Ümumi razılığa əsasən, eyni xarakter və məzmun daşıyan dəyişikliklər birlikdə müzakirə edilib. Qanun layihələrinin mahiyyəti barədə məlumat verən komitə sədri Musa Quliyev bildirib ki, 60 qanuna əlavə və dəyişikliklər irəli sürülüb. Vurğulanıb ki, qanunlara dəyişikliklər 2018-ci ildə qəbul edilmiş "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunun və onun tətbiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrası ilə əlaqədardır.

Burada əsas yenilik indiyədək mövcud olan klassik əlillik dərəcələrindən imtina edilərək onun insanların sağlamlıq imkanlarının, orqanizmin funksiyalarının itirilməsi faizi ilə ifadəsinə keçiddir. Dəyişikliklərdə əsas məsələ şəxsin əlilliyinin dəqiq müəyyən olunması və sağlamlığının qalan imkanlarının düzgün qiymətləndirilərək onun reabilitasiya potensialının müəyyənləşdirilməsidir.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihələri barədə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunan bu qanun layihələri həm də "Əlilliyin müəyyən olunması meyarları" sahəsində ÜST-ün müəyyənləşdirdiyi standartların implementasiyasını nəzərdə tutur. Şöbə müdiri dəyişikliklərin əlillik təyinatının daha obyektiv aparılmasına təminat verdiyini vurğulayıb, onların hazırlanması prosesində təhlil edilmiş qabaqcıl beynəlxalq təcrübələrdən danışıb. Dəyişikliklərdə əsasən "əlillik dərəcəsi" sözlərinin "insan orqanizminin funksiyalarının itirilməsi faizi" sözləri ilə, "I, II və III dərəcə" sözlərinin "orqanizminin funksiyalarını 31-100 faiz itirmiş" sözləri ilə, "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözlərinin "18 yaşınadək əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilməsi təklif olunub.

İclasda iştirak edən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxışlarında əlilliyin təyinində yeni yanaşmaların, yeni standartların tətbiqində əlillərin mənafelərinin əsas götürülməsinin əhəmiyyətindən danışıblar. Komitə sədrləri əlillik təyinatlarında ünvanlılığın və sosial ədalətin təmin edilməsi, bu sahədə beynəlxalq təcrübənin və standartların tətbiqi, xidmət keyfiyyətinin və vətəndaş məmnunluğunun yüksəldilməsinin aktuallığına toxunublar.

Komitənin iclasında deputatlar Soltan Məmmədov, Jalə Əhmədova, Kamal Cəfərov, Əziz Ələkbərov, Aqil Məmmədov çıxış ediblər, qanun layihələrinə təklif olunan dəyişikliklərlə bağlı rəy və təklifləri bildiriblər. Deputatlar beynəlxalq standartlardan və pozitiv təcrübədən qaynaqlanan mütərəqqi normaların milli qanunvericilikdə təsbit olunmasını müsbət qarşılayıblar.

İclasa dəvət olunmuş əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev və nazirliyin Əlillik siyasəti şöbəsinin müdiri Sabir Qocayev deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, sualları cavablandırıblar.

Tədbirin sonunda parlamentin Əmək və sosial siyasət komitəsinin üzvləri gündəlikdəki 7 məsələni birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

Onlayn iclasda deputatlardan Rauf Əliyev, Jalə Əliyeva, Vüqar Bayramov, Səttar Möhbalıyev, Arzu Nağıyev, Ziyad Səmədzadə, Cəbi Quliyev, Naqif Həmzəyev və digər rəsmi şəxslər də iştirak ediblər.

# Azərbaycanın və Türkiyənin baş prokurorları Gəncəyə səfər ediblər

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev və Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Bəkir Şahinin başçılıq etdiyi nümayəndə heyəti iyunun 2-də Gəncə şəhərinə səfər ediblər.

AZƏRTAC xəbər verir ki, baş prokurorlar əvvəlcə dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər. Səfər çərçivəsində şəhərin mərkəzi meydanında Ulu Öndər Heydər Əliyevin abidəsi önünə əklil qoyulması və Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutduğu ərazinin ziyarət edilməsi nəzərdə tutulub.

# Azərbaycanın və Türkiyənin baş prokurorları Ermənistan ordusunun Gəncəni raket atəşinə tutması nəticəsində dağılan ərazidə olublar







Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev və Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Bəkir Şahinin başçılıq etdiyi nümayəndə heyəti iyunun 2-də Gəncəyə səfər çərçivəsində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin məqbərəsi ziyarət edilib, burada yaradılan şəraitlə tanışlıq olub. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi ili" elan olunduğu qonaqların diqqətinə çatdırılıb, dünya şöhrətli şairin irsi barədə heyət üzvlərinə ətraflı məlumat verilib.

Daha sonra nümayəndə heyəti Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Gəncənin raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə baş çəkib. Qonaqlar günahsız mülki insanlara qarşı həyata keçirilmiş erməni hərbi cinayətlərinin nəticələri ilə yerində tanış olublar.

Nümayəndə heyətinin üzvləri erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq dağılmış evlərin ətrafına gül düzüblər.

Məlumat verilib ki, cəbhə zonasından kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncə Ermənistan tərəfindən ümumilikdə beş dəfə ağır artilleriya və raket zərbələri ilə atəşə tutulub. Raket hücumları nəticəsində Gəncənin tarixi və dini abidələri, təhsil və səhiyyə ocaqları da zərər görüb.

Sonra qonaqlar Gəncə Şəhər Prokurorluğunun inzibati binasında yaradılmış şəraitlə tanış olublar. Onlara prokurorluğun fəaliyyəti barədə ətraflı məlumat verilib.

Nümayəndə heyətinin səfəri davam edir.

# Türkiyə Ali Məhkəməsinin baş prokuroru "ASAN xidmət"də





Türkiyə Respublikasının Ali Məhkəməsinin baş prokuroru Bekir Şahinin başçılıq etdiyi nümayəndə heyəti "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan dövlət agentliyinin sədri Ülvi Mehdiyev "ASAN xidmət"in yaradılması məqsədləri və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd olunub ki, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından "ASAN xidmət"in yaradılması ilə səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlər əldə olunub.

Bildirilib ki, bu günədək 44 milyondan çox vətəndaş müraciəti qeydə alınıb. "ASAN xidmət"in 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Mükafatına, 2019-cu ildə isə BMT-nin rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görülməsi qonaqların diqqətinə çatdırılıb.

Eyni zamanda görüş çərçivəsində müvafiq istiqamətlər üzrə Türkiyə tərəfi davam edən uğurlu əməkdaşlıqdan və həyata keçirilən layihələrdən bəhs edilib.

Yaradılmış şərait və iş prinsipi ilə tanış olan qonaqlar "ASAN xidmət"ə gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Sonda qonağa "ABAD"çı tərəfindən hazırlanmış xatirə hədiyyəsi təqdim olunub.

# FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətində tədris-metodiki toplantı keçirilib



İyunun 2-də Fövqəladə Hallar Nazirliyinin (FHN) Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətində çimərlik mövsümünə hazırlıqla əlaqədar olaraq tədris-metodiki toplantı keçirilib.

FHN-in Mətbuat xidmətindən bildiriblər ki, toplantıda xidmətin rəhbərliyi, dalğıc-axtarış qrupları və sularda xilasetmə məntəqələrinin məsul şəxsləri iştirak ediblər.

Xidmətin rəisi, daxili xidmət general-mayoru Rüfət Fəradov tədbirdə çıxış edərək ötən il su obyektlərində suda boğulma hadisələri ilə mübarizə istiqamətində həyata keçirilmiş tədbirlər haqqında geniş məlumat verib. Eyni zamanda su hövzələrində axtarış-xilasetmə tədbirləri, dalğıc işləri və insanların sularda təhlükəsizliyinin təmin olunması sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə görülmüş işlər diqqətə çatdırılıb. Daha sonra xidmətin struktur bölmələrinin əməkdaşları 2021-ci il üçün çimərlik mövsümünə hazırlıq işlərinin təşkili, suda bədbəxt hadisələrin qarşısının alınması ilə bağlı əhali arasında maarifləndirmə işlərinin aparılması, çimərliklərdə təhlükəsizlik qaydaları, xilasetmə avadanlıqlarından istifadə zamanı texniki təhlükəsizlik tələbləri haqqında hesabat xarakterli çıxışlar ediblər.

Sonda xidmət rəisi insanların sularda təhlükəsizliyi və axtarış-xilasetmə tədbirlərinin daha səmərəli təşkili üçün aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

# Ankarada Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub













**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi və YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Milli Məclisin deputatı Ramil Həsən və YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamovdan ibarət nümayəndə heyəti Türkiyədə səfərdədir.**

AZƏRTAC xəbər verir ki, Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti iyunun 2-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət edib.

Yeni Azərbaycan Partiyası adından Anıtqəbrin önünə əklil qoyulub.

Nümayəndə heyəti Anıtqəbir muzeyi ilə tanış olub, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Tahir Budaqov xatirə kitabına ürək sözlərini yazıb.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Ankarada AKP-nin mərkəzi qərargahında ilk olaraq Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AKP) Sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Numan Kurtulmuş ilə görüşüb.

Görüşdə iki qardaş ölkənin hakim siyasi partiyaları arasında əməkdaşlıq əlaqələrinin real vəziyyəti yüksək dəyərləndirilib, perspektivlər müzakirə olunub.

Sonra Yeni Azərbaycan Partiyası Sədrinin müavini Tahir Budaqov və Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Numan Kurtulmuş YAP ilə AKP arasında əməkdaşlığa dair niyyət protokolunu imzalayıblar.

İmzalanma mərasimindən sonra YAP Sədrinin müavini Tahir Budaqov və AKP Sədrinin birinci müavini Numan Kurtulmuş birgə mətbuat konfransı keçiriblər.

Türkiyə-Azərbaycan münasibətlərini bütün dünya üçün qardaşlıq nümunəsi kimi dəyərləndirən AKP Sədrinin birinci müavini Numan Kurtulmuş deyib ki, Qarabağın işğaldan azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsində Azərbaycanın yanında olmaqla, iki dövlət olsaq da, bir millət olduğumuzu bir daha həm azərbaycanlı qardaşlarımıza, həm də bütün dünyaya göstərdik. Törədilən soyqırımlar, bir milyondan çox günahsız insanın doğma yurdundan didərgin düşməsi və mövcud işğal ilə Azərbaycan xalqına qarşı davam edən zülmlərin aradan qaldırılması heç bir vasitəçiliklə, diplomatik və siyasi danışıqlarla mümkün olmadı.

Dünya birliyinin Xocalı soyqırımı başda olmaqla, törədilən bütün cinayətlərə və ədalətsizliklərə səssiz qaldığını təəssüf hissi ilə qeyd edən AKP Sədrinin birinci müavini Numan Kurtulmuş tarixi Zəfər münasibətilə bir daha səmimi təbriklərini çatdırıb, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyib. O deyib: "Azərbaycanın Qarabağ Zəfəri nəticəsində yaranmış mövcud vəziyyət, cəbhədə qazanılan Qələbə həm Azərbaycan, həm də Türkiyə üçün faydalı olacaq". AKP rəsmisi diqqətə çatdırıb ki, region Azərbaycan və Türkiyənin dostluğu, qardaşlığı sayəsində sülh və inkişaf mərhələsinə daxil olur. Bu bölgədə gözü olan bütün imperialist güclərin həvəs və istəklərinə baxmayaraq, gücümüzü artıraraq, dostluğumuzu qoruyaraq, imkanlarımızı səfərbər edərək bu coğrafiyada sülhün, əmin-amanlığın və tərəqqinin bərqərar olmasına nail olacağıq.

Doğma Vətən hesab etdiyimiz Türkiyədə olmaqdan, yüksək qonaqpərvərlikdən məmnunluğunu ifadə edən Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, ölkələrimiz tarixdə ən uğurlu və güclü əməkdaşlıq dövrünü yaşayır. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Türkiyə Prezidenti, Ədalət və İnkişaf Partiyasının Sədri Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri, ölkələrimiz arasında digər sahələrdə olduğu kimi YAP və AKP əməkdaşlıq əlaqələrinə də dinamik mərhələ yaradıb.

Mayın 4-də Türkiyənin Ədalət və İnkişaf Partiyası - Yeni Azərbaycan Partiyası əməkdaşlığı çərçivəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycan-Türkiyə, bir millət, iki dövlət: Qarabağ Zəfəri sonrası reallıqlar və uydurma erməni soyqırımı açıqlamasının regionda sülhə və sabitliyə təsirləri" mövzusunda videokonfrans keçirildiyini xatırladan YAP Sədrinin müavini Tahir Budaqov deyib: "Bu konfransda dərinməzmunlu çıxışlar oldu, gələcəkdə Azərbaycanın və Türkiyənin əməkdaşlığı, yeni şəraitə uyğun siyasətin həyata keçirilməsi üçün mühüm mesajlar verildi. Biz də Ankaraya səfərimizi türk dünyasının böyük oğlu, "Azərbaycanın sevincini sevinicimiz, kədəri kədərimizdir", - ifadəsi ilə nəsillərə örnək yaradan Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət etdik".

Çıxışlarda diqqətə çatdırılıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusunun 44 günlük şanlı Vətən savaşında qazandığı Qələbə bölgədə yeni vəziyyət yaradıb. Regional nəqliyyat və kommunikasiya xətlərinin bərpası sülh, əməkdaşlıq və inkişaf istəyən bütün tərəflərin maraqlarını təmin edir. Bütün tərəflər işğal faktının aradan qaldırılması nəticəsində yaranmış vəziyyəti düzgün dəyərləndirməlidir.

Zəngəzur nəqliyyat dəhlizinin əhəmiyyətini yüksək dəyərləndirən partiya rəsmiləri Türkiyənin Naxçıvana birləşəcək dəmir yolu xətti ilə Azərbaycanın digər bölgələrinə və digər türkdilli ölkələrə quru yolu ilə sərbəst çıxış əldə edəcəyini bütün region üçün əhəmiyyətli hadisə kimi dəyərləndiriblər.

Mətbuat konfransında Vətən müharibəsindən sonra Azərbaycanın yürütdüyü siyasət yüksək qiymətləndirilib. Diqqətə çatdırılıb ki, işğaldan azad edilən ərazilərdə aparılan əsaslı bərpa və yenidənqurma işləri, əhalinin doğma yurduna vahid strategiya əsasında qaytarılması istiqamətində görülən işlər nümunəvidir. Bütün bu proseslərdə Azərbaycanın və Türkiyənin atdığı birgə addımlar təqdirəlayiq, Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının səmərəli əməkdaşlığı qardaşlığımızın qorunmasına böyük töhfədir.

Sonra Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Ədalət və İnkişaf Partiyası (AKP) Sədrinin beynəlxalq məsələlər üzrə müavini Əfkan Ala ilə görüşüb.

Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının əməkdaşlıq əlaqələrinin inkişaf perspektivləri müzakirə olunduğu görüşdə YAP-AKP münasibətlərinin inkişafı, gələcəkdə hər iki partiyanın beynəlxalq əlaqələr sahəsində birgə fəaliyyət mexanizminin işlənib hazırlanması, Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığa dair niyyət protokoluna uyğun olaraq, partiyaların rəhbər şəxslərinin, eləcə də millət vəkillərinin beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətinə dair koordinasiyanın yaradılmasına dair fikir mübadiləsi aparılıb və ümumi razılıq əldə edilib.

İyunun 2-də Yeni Azərbaycan Partiyası nümayəndə heyəti Ədalət və İnkişaf Partiyası (AKP) Sədrinin müavini, Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımla görüşüb.

AKP-nin mərkəzi qərargahında dostluq şəraitində keçirilən görüşdə Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının əməkdaşlıq əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Türkiyə Prezidenti, Ədalət və İnkişaf Partiyasının Sədri Rəcəb Tayyib Ərdoğanın tapşırıqları əsasında iki qardaş ölkənin hakim partiyaları arasında çoxistiqamətli əlaqələrin vəziyyəti yüksək dəyərləndirilib.

Diqqətə çatdırılıb ki, dostluq və qardaşlıq münasibətləri ölkələrimiz arasında digər sahələrdə olduğu kimi, YAP-AKP münasibətlərində də nümunəvi məcrada dinamik şəkildə inkişaf edir.

Görüşdə milli ideologiyaların inkişafı, birgə sosial layihələrin işlənib hazırlanması perspektivləri, QHT və media qurumları ilə əməkdaşlıq, Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əməkdaşlığa dair niyyət protokolundan irəli gələn vəzifələrlə bağlı səmərəli fikir mübadiləsi aparılıb və ümumi razılıq əldə edilib.

Səfər çərçivəsində YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov ilə qardaş ölkənin hakim Ədalət və İnkişaf Partiyası (AKP) Gənclər qollarının sədri Eyyub Kadir İnan arasında da görüş keçirilib.

Görüşdə iki qardaş ölkənin gənclər birlikləri arasında əməkdaşlıq imkanları, tərəfdaşlıq əlaqələrinin qurulması, hər iki partiyanı təmsil edən gənclərin ölkələrimizə qarşılıqlı səfəri, intellektual inteqrasiya yolları müzakirə olunub.

Həmçinin Azərbaycanın və Türkiyənin dövlətçilik tarixindən mühüm tarixi missiya həyata keçirən YAP-ın və AKP-nin gənc üzvlərinin ictimai-siyasi proseslərdəki fəaliyyəti mühüm amil kimi dəyərləndirilib. Diqqətə çatdırılıb ki, gənclər bundan sonra da milli-mənəvi dəyərlərimizin qorunmasında, dövlətçiliyə aid bütün proseslərdə fəal olmalı, təmaslarını intensivləşdirməli, cəmiyyətlərimizdə saf imicləri ilə nümunəvi olmağı davam etdirməlidirlər.

YAP-ın və AKP-nin Gənclər birliklərinin rəhbərlərinin növbəti görüşünün Azərbaycanda keçirilməsi qərara alınıb.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Ankaraya səfəri çərçivəsində partiyanın və Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) Təftiş komissiyaları arasında əməkdaşlıq məsələləri də müzakirə olunub.

YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynovanın Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) Təftiş Komissiyasının sədri Ahmet Aydın ilə görüşündə iki qardaş ölkənin hakim partiyalarının Təftiş komissiyaları arasında təcrübə mübadiləsi, gələcək əməkdaşlığın əsaslarının yaradılması istiqamətində fikir mübadiləsi aparılıb.

Diqqətə çatdırılıb ki, Azərbaycanda böyük nüfuza malik Yeni Azərbaycan Partiyası monolit təşkilat olaraq cəmiyyətin bütün təbəqələrinə nüfuz etdiyi kimi, Türkiyədə də hakim Ədalət və İnkişaf Partiyası xalqın etimadını qazanıb və onu doğrulda bilib. Bu baxımdan YAP-ın və AKP-nin Təftiş komissiyaları arasında qarşılıqlı təcrübə mübadiləsi hər iki partiyanın gələcək fəaliyyətinin daha düzgün istiqamətləndirilməsinə töhfə verə bilər.

İyunun 3-də davam edəcək səfər çərçivəsində partiya heyətlərinin digər görüşləri keçiriləcək.

# Azərbaycanın qətiyyətinin və prinsipiallığının təntənəsi

*Əvvəli 1-ci səh.*

Vətən savaşı günlərində Azərbaycana xaricdən çox təzyiqlər edildi. Ermənistanın müdafiəsinə qalxan siyasi mərkəzlər, dünya erməniliyi ölkəmizi öz yolundan döndərmək üçün bütün rıçaqları işə salmışdılar. Ermənistanın işğalçı siyasətinə göz yuman və öz laqeydlikləri ilə bu işğala rəvac verən ayrı-ayrı beynəlxalq təşkilatlar və dövlətlər Azərbaycanın uğurlu hərbi əməliyyatları başlayandan sonra atəşin dayandırılması, problemin danışıqlar masası ətrafında həlli üçün canfəşanlıq etdilər. Hətta BMT səviyyəsində Azərbaycanın maraqlarına cavab verməyən sənədin qəbuluna cəhd göstərdilər.

Lakin bunların heç biri öz haqqı uğrunda mübarizə aparan Azərbaycanın qarşısını ala bilməzdi. Bu təzyiqlərin heç biri müstəqil siyasət yürüdən İlham Əliyevi öz yolundan döndərə bilməzdi. İlham Əliyev lider qətiyyəti ilə, böyük uzaqgörənliklə bütün bu təzyiqlərə mətinliklə, qətiyyətlə sinə gərdi, Azərbaycanın haqq işinin qarşısını heç bir qüvvə ala bilmədi. Humanitar atəşkəs razılaşmalarını da Ermənistan pozdu və buna görə hər dəfə layiqli cəzasını aldı. İlham Əliyev eyni vaxtda həm döyüş cəbhəsində, həm diplomatiya, həm də informasiya cəbhəsində məharətli sərkərdə kimi ölkəsinin maraqlarını inamla və qətiyyətlə müdafiə etdi. Dövlət başçısı istənilən ağır şəraitdə və taleyüklü anlarda Azərbaycanın milli maraqlarının müdafiəsinin necə təşkil edilməsi ilə bağlı şəxsi nümunə ortaya qoydu.

## Ermənistanın təəssübkeşləri proseslərdən kənar qalıblar

Azərbaycan ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə 28 il aparılan danışıqlar prosesinə hər zaman sadiq olaraq münaqişənin sülh yolu ilə həllinə çalışdı. Danışıqlarda isə beynəlxalq hüquq həmişə Azərbaycanın tərəfində olub. Sovet hakimiyyətinin vilayət kimi yaratdığı Dağlıq Qarabağın ərazisi Azərbaycanın tarixi torpaqlarıdır və həmişə də ölkəmizin tərkibində olub. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra Dağlıq Qarabağ bütün dünya tərəfindən Azərbaycanın ərazisi kimi tanınıb. Daha sonra BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistanın qoşunlarının işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması tələb olunub. Bundan əlavə, bütün beynəlxalq təşkilatların müvafiq sənədlərində Azərbaycanın ərazi bütövlüyü məsələsi tam təsbit edilib.

ATƏT-in Minsk qrupu da formalaşdırılanda öz fəaliyyətində beynəlxalq hüquqa əsaslanmışdı. Lakin 28 ildə Minsk qrupu öz mandatına uyğun fəaliyyət göstərə, münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi, beynəlxalq hüququn tələblərini təmin etməkdən uzaq oldu. Buna görə Ermənistanın hərbi aqressiyası daha da artdı və nəticədə Azərbaycan problemi təkbaşına yoluna qoydu, beynəlxalq hüququn tələblərini güc yolu ilə təmin etdi. "Qırx dörd günlük müharibə bizim gücümüzü göstərdi, Silahlı Qüvvələrimizin rəşadətini göstərdi, qəhrəmanlığını göstərdi, xalqımızın birliyini göstərdi. Biz bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdik, düşməni torpağımızdan qovduq. Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü bizim üçün əzizdir, doğmadır. Çünki hər gün biz irəli gedirdik, hər gün" - deyə Prezident İlham Əliyev bu barədə bildirib.

Zamanında fəallıq göstərməyənlər, Ermənistana qarşı kəsərli təsir mexanizmlərini tətbiq etməyənlər, işğalçıya "dur" deməyənlər bu gün də Ermənistanın maraqlarının ifadəçisi kimi çıxış etməyə cəhd göstərirlər. Məsələn, Fransa prezidenti E.Makron bu günlərdə bildirib ki, Fransa Ermənistan və Azərbaycan arasında sülhün bərpasına və dialoqun inkişafına yardım edəcək. Əlbəttə, 30 ilə yaxın işğal dövründə münaqişənin həlli üçün bir addım belə atmayan, müharibə günlərində vasitəçilk mandatını tamamilə unudan, aşkar şəkildə Ermənistanı müdafiə edən ölkənin rəhbəri öz açıqlamasının səmimiliyinə, yəqin ki, özü də inanmır. Digər tərəfdən Ermənistanı müdafiə edərək buna yönəlik açıqlamalar verən prezident hansı sülhün bərpasına yardım edə bilər?

Bu gün regionda müharibədən sonra yaranan reallıqlar fonunda yeniliklər baş verir. Prezident İlham Əliyev bir neçə gün əvvəl Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlunu qəbul edərkən Zəngəzur dəhlizi ilə bağlı bildirdi ki, Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup çərçivəsində bu məsələ müzakirə edilir və yaxşı nəticələr də var.

Ermənistanın üçtərəfli Bəyanata əsasən üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən başqa yolu yoxdur. Cənubi Qafqazda yaranmış yeni reallıqlar, üçtərəfli görüşlər fonunda artıq dialoq mövcuddur. Amma Fransa kimi dövlətlərə bu prosesdə yer yoxdur. Azərbaycanın yaratdığı reallıq onları bu prosesdən uzaq qoyub.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti Ermənistan silahlı qüvvələrinin son təxribatları ilə bağlı birgə məlumat yayıb

İyunun 1-i saat 20.00 radələrində Ermənistan silahlı qüvvələri təqribən 40 nəfərə yaxın şəxsi heyətlə Azərbaycan Respublikasının Kəlbəcər rayonunun Armudlu kəndi istiqamətində 400 metr Azərbaycan ərazisinə daxil olub və 40 dərəcə 04 dəqiqə 30 saniyə şimal enliyi, 45 dərəcə 54 dəqiqə 42 saniyə şərq uzunluğu (N 40°04′30″; E 45°54′42″) coğrafi koordinatlarında mövqe tutublar.

Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin dərhal həyata keçirdiyi tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələri ölkəmizin ərazisindən çıxarılıb.

Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin ölkəmizin ərazisindən çıxarılması zamanı silahlı qüvvələrimiz tərəfindən silah tətbiq edilməyib.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazisinə müdaxiləsi növbəti təxribatdır və bunun məsuliyyəti tam şəkildə Ermənistan tərəfinin üzərinə düşür. Baş verən hadisə bir daha onu göstərir ki, beynəlxalq ictimaiyyətin və Azərbaycan tərəfinin sərhəd məsələlərinin danışıqlar və dialoq yolu ilə həll edilməsi ilə bağlı çağırışlarına zidd olaraq Ermənistan iki ölkənin dövlət sərhədi boyunca vəziyyəti gərginləşdirmək məqsədini güdür.

Azərbaycan Respublikasının dövlət sərhədlərinin pozulması və ölkəmizin ərazisinə Ermənistan silahlı qüvvələrinin müdaxiləsi hallarının qarşısı bundan sonra da qəti tədbirlər vasitəsilə alınacaq. Ermənistan məsuliyyətli davranmalı, qonşu dövlətlərin sərhədlərinə və ərazi bütövlüyünə hörmət etməli və regionda vəziyyəti gərginləşdirə biləcək təxribatlardan çəkinməlidir.

# Azərbaycan-UNESCO münasibətlərində yeni mərhələ

*Əvvəli 1-ci səh.*

## Azərbaycan-UNESCO əməkdaşlığı

Azərbaycan Respublikası UNESCO-ya 1992-ci il iyunun 3-də üzv qəbul olunub. 1993-cü ilin sonlarında Ulu Öndər Heydər Əliyev Fransa Respublikasında rəsmi səfərdə olarkən UNESCO-nun baş direktoru Federiko Mayorla görüşüb. Əməkdaşlığın genişlənməsi məsələsini və onun sonrakı inkişafının perspektiv planlarını müzakirə ediblər.

Təşkilatın nizamnaməsinə görə, üzv dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini UNESCO-nun işi ilə əlaqələndirmək üçün, ilk növbədə, Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Buna görə də UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi işlər həyata keçirilib. BMT-nin təhsil, elm və mədəniyyət təşkilatı olan UNESCO ilə əməkdaşlığı genişləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev 21 fevral 1994-cü il tarixdə sərəncam imzalayıb. Sərəncama əsasən, Milli Komissiya Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdində yaradılıb, xarici işlər naziri onun sədri təyin edilib. Sədrə Milli Komissiyanın tərkibini müəyyənləşdirmək səlahiyyəti verilib. Sonra respublikanın müvafiq nazirlik və idarələrinin rəhbərlərindən, ziyalılardan və ictimaiyyət nümayəndələrindən ibarət Milli Komissiyanın 25 nəfərlik tərkibi və daimi katibliyi formalaşdırılıb. 1996-cı ildə isə Azərbaycan-UNESCO arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb.

Ümummilli Lider Heydər Əliyev "Dədə Qorqud kitabı"nın 1300 illik yubileyinin keçirilməsi ilə bağlı 1997-ci il 20 apreldə fərman imzalayıb. 1999-cu ilin 21 fevralında "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında sərəncam verilib. 2000-ci ilin 9 aprelində Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin dövlət başçılarının və UNESCO-nun baş direktoru K.Matsuuranın iştirakı ilə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirilib.

## Azərbaycanın maddi və mənəvi irsinin nümunələri UNESCO-nun nadir əsərləri siyahısında...

Ötən zaman ərzində Azərbaycan-UNESCO əlaqələri xeyli genişlənib. 2005-ci il sentyabrın 15-də Prezident İlham Əliyev UNESCO ilə Azərbaycan Respublikası arasında qarşılıqlı münasibətlərin inkişaf səviyyəsini nəzərə alaraq, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yeni tərkibi seçilib. Milli Komissiya Azərbaycanın UNESCO-dakı siyasətinin əsas istiqamətlərini müəyyənləşdirib.

Bu gün Azərbaycanla UNESCO arasında əlaqələr davamlı və dinamik şəkildə həyata keçirilir. Bu istiqamətdə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Fondun prezidenti Mehriban xanım Əliyeva 2004-cü ildə ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və UNESCO-nun ideyalarına göstərdiyi sadiqliyə görə bu təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görülüb.

Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiri seçildikdən sonra bu nüfuzlu qurumla Azərbaycan Respublikası arasındakı əlaqələr daha sürətlə inkişaf etməyə başlayıb.

2005-ci il aprelin 6-da Prezident İlham Əliyev Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında sərəncam imzalayıb. Beləliklə, xalqımızın qədim mədəni irsinin nadir nümunələrindən olan Azərbaycan muğamına möhtəşəm abidə ucaldılması istiqamətində məqsədyönlü işlər görülüb. Bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada Azərbaycan muğamının da UNESCO-nun Dünya irs siyahısına daxil edilməsi onun bənzərsiz sənət növü olmasının təsdiqidir.

2009-cu ilin martında Mehriban Əliyevanın təşəbbüsü ilə Bakıda Beynəlxalq Muğam Festivalı keçirilib. Festival çərçivəsində Beynəlxalq Elmi Simpozium, Beynəlxalq Muğam musabiqəsi və festival konsertləri silsiləsi təşkil olunub. Müsabiqəyə Türkiyə, Almaniya, İraq, Suriya, Mərakeş, Özbəkistan, Tacikistan, Qazaxıstan və Misirdən 67 iştirakçı qatılıb.

UNESCO-nun yubileylər proqramı çərçivəsində onlarca tədbir beynəlxalq səviyyədə qeyd edilib. Buna misal olaraq müxtəlif illərdə düzənlənən dünyaşöhrətli Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin, böyük alim Nəsirəddin Tusinin, şərqşünas alim Mirzə Kazımbəyin, akademik Yusif Məmmədəliyevin, məşhur rəssam, xalça ustası Lətif Kərimovun, görkəmli yazıçı Mir Cəlal Paşayevin, böyük rəssam Səttar Bəhlulzadənin və başqalarının yubiley tədbirlərini qeyd edə bilərik.

BMT-nin Sivilizasiyalar Alyansı, UNESCO, Avropa Şurası, AŞ-nin Şimal-Cənub Mərkəzi və ISESCO-nun dəstəyi ilə təşkil edilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında mədəniyyətlərarası dialoqun inkişafının nəzərdə tutulduğu "Bakı prosesi"nin davamı çərçivəsində respublikamızda həyata keçirilən tədbirlər sırasındadır.

2013-cü il iyulun 18-də ölkəmizin UNESCO-ya üzv olmasının 20 illiyi münasibətilə Parisdə qurumun baş qərargahında UNESCO ilə Azərbaycan hökuməti arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahəsində əməkdaşlığa dair Çərçivə Sazişi imzalanıb. Tədbirdə iştirak edən Azərbaycanın birinci xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bu addımın "beynəlxalq səviyyədə başlanmış prioritet proqramlara və təşəbbüslərə dəstək verməklə UNESCO-nun ideallarının və prinsiplərinin dünyada təbliğinə töhfə verəcəyinə" əminliyini diqqətə çatdırıb.

2019-cu il iyunun 30-da UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi təşkil olundu. Dünyanın 180-dək ölkəsindən bu tədbirə 3 minə yaxın nümayəndə qatılıb.

Həmin il oktyabrın 31-də - Dünya Şəhərlər Günü münasibətilə UNESCO 48 ölkədən 66 şəhəri "yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edib. Mədəniyyət və Turizm, Xarici İşlər nazirliklərinin və Azərbaycan Respublikasının UNESCO yanındakı daimi nümayəndəliyinin səyləri nəticəsində Bakı şəhəri şəbəkənin "dizayn" tematikası üzrə siyahıya salınıb.

Azərbaycan-UNESCO münasibətlərinin inkişafında və gücləndirilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidnətləri danılmazdır. Onun səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer alıb.

Azərbaycanın UNESCO üzrə Milli Komissiyası təşkilatın bütün prioritet istiqamətləri üzrə əməkdaşlıq etməklə, həm yerli dövlət qurumları və institutları, həm də digər dövlətlərin UNESCO üzrə milli komissiyaları ilə birlikdə çoxsaylı layihələr reallaşdırır. Ötən illər ərzində Azərbaycanın tarixi maddi-mədəni irs nümunələri olan İçərişəhər Tarixi-Memarlıq Qoruğu, Şirvanşahlar sarayı, Qız qalası, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Ümumdünya Maddi-Mədəni İrs Siyahısına, həmçinin Azərbaycan muğamı, Azərbaycan aşıq sənəti, Novruz bayramı, Azərbaycan xalçaçılıq sənəti, Azərbaycan tar ifaçılıq sənəti, Qarabağ atüstü oyun ənənəsi - Çövkən, Azərbaycan kəlağayı sənəti, Lahıc misgərlik sənəti, Lavaş, Azərbaycan dolması, Kamança Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilib. 2017-ci ildə isə Azərbaycanın Şəki şəhəri UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına daxil edilib. UNESCO-nun nadir əsərləri sırasına Azərbaycanın maddi və mənəvi irsinin daxil edilməsi beynəlxalq əməkdaşlıq sahəsində mühüm addımlardandır.

Ölkəmizin UNESCO ilə ən vacib fəaliyyət istiqamətlərindən biri də erməni işğalçıları tərəfindən dağıdılmış nadir mədəniyyət inciləri haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması, eləcə də həmin abidələrin, mədəniyyət ocaqlarının bərpası, qarət olunub respublikadan çıxarılmış sənət əsərlərinin qaytarılması məsələləridir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

◆ Qarabağ söhbətləri





# İlham Əliyev Ağdamın ruhunu özünə qaytarır

## Ədalət MURADOV: "Prezident Qarabağda nə yaradırsa, tamamilə yeni olacaq və dünyada mövcud olan analoqlardan qat-qat yüksəkdə dayanacaq"

*Səhəri dirigözlü açmışdı...*

*Gecə boyu kirpiyini belə qırpmadan beynində dolaşan fikir dəryasına qərq olmuş, elə hey həyəcanla düşünmüşdü. İlahi, görəsən, necə olacaq... Ürəyi tab gətirəcəkdimi o yurdları yaralı görməyə?!.*

*Yol boyunca da bu narahat fikirlər beynini tərk etməmişdi... Xaçın körpülərinə yaxınlaşanda isə quş kimi çırpınan ürəyinin döyüntüsü az qala qulaqlarını batırmış, acı bir qüssə qəlbinə ox kimi sancılmışdı...*

*"Güllücə alınanda Xaçın körpüsündən dizin-dizin sürünərək gedəcəm kəndimizə" - deyən anasının intizarlı səsi gəlmişdi qulaqlarına... Elə o doğma səsə məhrəm olub bir quş kimi qanad açmışdı illərin o üzünə...*

*Ailə tablosunun bütöv olduğu, atalı-analı, bacı-qardaşlı bəxtəvər Ağdamlı günlərinə... Güllücəli xoşbəxt uşaqlıq çağlarına...*

*Sonra isə fikirləri dönüb-dolaşıb bir andaca düz 28 il əvvələ, Ağdamda olduğu o son məşum günə qayıtmışdı...*

*1993-cü ildə, Ağdamın işğal təhlükəsi yaşadığı o ağır günlərin birində o da doğulduğu Güllücəyə üz tutmuşdu. Doğma küçələrlə addımlamış, əzizləri ilə qarşılaşmaq ümidi ilə elə hey ətrafa boylanmışdı, amma...*

*Sonra ata yurduna, qəribsədiyi isti həniri, doğmalığı görməyə tələsmişdi... Heyhat, kəndi bürüyən daş kimi lal-sükut, soyuqluq buraya da ondan əvvəl qədəm basmışdı... İndi evlərində nə onu sevinclə qarşılayacaq bacı-qardaşları, nə də onu bağrına basacaq anası var idi... Ömrünün ən xoş illərini keçirdiyi doğma evi, kəndi suyu sovulmuş dəyirmana bənzəyirdi...*

*Əllərini kimsəsiz qalmış yurdun doğma daşlarında-divarlarında gəzdirmiş, əyilib torpağa sığal çəkmişdi, amma bir andaca onların tükürpərdici soyuqluğu ürəyinə qədər işləmiş, sinəsini göynətmişdi...*

*Və elə indi, düz 28 ildən sonra da Xaçın körpüsündə birdən-birə həmin tükürpərdici soyuqluğu canında hiss etmiş, kədərli fikirlərin basqısından üşənmişdi...*

*Amma burnuna dəyən tanış Vətən qoxusunu ciyərlərinə çəkərək dərindən bir ah çəkmiş, ayaqları Ağdamın müqəddəs torpağına dəydikcə özündə inanılmaz güc, qüvvət hiss etmişdi...*

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradovdur "Qarabağ söhbətləri"ndə...

Bu dəfə Ədalət müəllim Ağdamın keçmişinə deyil, Prezident İlham Əliyevin təməlini qoyduğu ağ gələcəyinə doğru fərəhlə qanad açdı...

### Özümüzə qayıdış

- Mayın 28-də, Respublika günündə Ağdamda həyata keçirilən təməlqoyma mərasimi ürəyimdə illərdir qövr edən yaralara məlhəm çəkdi...

Qarabağımızı bizə, bizi özümüzə qaytardığı üçün Ali Baş Komandan İlham Əliyevə sonsuz təşəkkür edirəm. Bu təkcə Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad edilməsi məsələsi deyil. Bu qalibiyyətin arxasında çox ciddi məqamlar, hərbi, iqtisadi, ən önəmlisi mənəvi yük var.

Qarabağın təməl daşının qoyulması Respublika günündə baş verdi və cənab Prezidentin özünün də bildirdiyi kimi, bu bir rəmzi məna daşıyırdı.





Builki Respublika günü, həm də Ağdamın Baş Planının təqdimatı və möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən yeni Ağdamın təməl daşının qoyulması ilə tarixə düşdü. Xoşbəxtəm ki, mən də bu mərasimdə iştirak etdim. Cənab Prezident vurğuladı ki, "Yeni Ağdam dünya üçün örnək olacaq". Ağdam təsəvvür edilə bilməyəcək dərəcədə gözəl, müasir, funksional şəhər olacaq. Ağdam növbəti möcüzə olacaq...

Ağdama getməzdən bir gün əvvəl Ağcabədidə gecələdik. İnandırım ki, bizimlə yola çıxmış Ağdamın təməl daşının qoyulma mərasimində iştirak edəcək şəxslərin heç biri sabahadək yata bilmədi. Hamı səbirsizliklə ora getməyə tələsirdi.

Xaçın körpülərinə yaxınlaşanda ürəyimdə bir sıxıntı yarandı, çünki buradan doğulduğum Güllücə kəndinə cəmi 7 kilometr məsafə var idi...

Amma tam səmimi deyim ki, ondan sonra həmin ağrıları hiss etmədim. Çünki bir az irəli gedəndə Bərdə-Ağdam avtomobil yolunun çəkilişini gördük. Yəni orada görülmüş və görülməsi nəzərdə tutulan işlərin bizdə yaratdığı o müsbət emosiya, o ağrı-acılı hissləri xeyli üstələdi. Xüsusilə də Ağdamın təməl daşının qoyulmasında cənab Prezidentlə bir yerdə olmaq, sözün mütləq mənasında böyük xoşbəxtlik idi. Özümü olduqca xoşbəxt hiss edirdim...

Baxmayaraq ki, ətrafı seyr etdikcə orada salamat bir bina da görmürdüm, erməni vandalları onları tamamilə viranə qoyublar. Amma torpaq bizimdir. Düşünürəm ki, dəyərlisi də elə o torpağa sahibliyi bərpa etməkdir. Torpağa sahiblik etdikdən sonra onun üzərində dağılanların bərpa edilməsi mümkündür və düşünürəm ki, bu ən qısa zamanda baş verəcək.

### İdeal baş plan

- Mayın 28-də təkcə təməlqoyma mərasimi deyil, həm də Ağdamın Baş Planının təqdimatı oldu. Buna görə də cənab Prezidentə təşəkkür edirəm ki, Ağdamın Baş Planını ilkin olaraq Ağdamın ziyalıları ilə müzakirə etdi.

Bu baş planda sanki hər bir ağdamlının fikri öyrənilib. Yəni o qədər dəqiq və incəliklə hazırlanıb ki, ora nə isə əlavə etməyə ehtiyac yoxdur, ideal baş plandır. Burada bütün incəliklər təhlil olunub. Hətta Ağdamın müxtəlif yerlərində, havanın, suyun, torpağın keyfiyyəti belə təhlil olunub ki, bu ərazidə hansı ağaclar daha yaxşı bitə bilər...

Bütövlükdə Ağdam şəhəri 100 min nəfər üçün nəzərdə tutulub. Onun ərazisi işğaldan əvvəlki ərazi ilə müqayisədə iki dəfədən çox artırılır. Yəni ilk olaraq Ağdamda bərpa işlərinə start verilməsi, Ağdamın Baş Planının təsdiq edilməsi özü də mühüm məqamdır. Bu, həm də, ilk növbədə, Cənab Prezidentin bütövlükdə Qarabağa çox böyük dəyər verdiyinin əyani nümayişidir.

Prezident Ağdamda yaşayış binasının, 1 nömrəli məktəbin, Qələbə və İşğal muzeylərinin əsasını da qoydu. Düşünürəm ki, çox qısa müddət ərzində bütün Qarabağ, o cümlədən də Ağdam bərpa olunacaq, tamamilə yeni simasını alacaq və biz də fəxarətlə deyəcəyik ki, Azərbaycan xalqı həqiqətən də qürurludur, mərddir və onun qarşısına qoyduğu vəzifə və məqsədlərə maneçilik törədə biləcək bir qüvvə yoxdur. Və elə cəmi 44 gün ərzində Qarabağın işğaldan azad olunması da bunu təsdiq edir ki, biz güclü xalq və eyni zamanda güclü rəhbəri olan xalqıq.

### Ağdam elm-təhsil, innovasiya mərkəzi olacaq

- Ağdam həm də bir elm-təhsil, innovasiya mərkəzi olacaq. Bu mənim ən böyük arzularımdan biri idi və qürurla qeyd edirəm ki, Ağdamın Baş Planında "Qarabağ" Universitetinin yaradılması da nəzərdə tutulub. Bu, şübhəsiz ki, təkcə Qarabağ, Azərbaycan üçün bir universitet olmayacaq, həm də dünyanın ən tanınmış universitetləri ilə rəqabət apara biləcək bir ali təhsil müəssisəsi olacaq. Əminəm ki, bu universitet təhsil, elm və innovasiya sahəsində öz sözünü deyəcək. Bunun üçün bizim potensialımız da, istəyimiz də var. Eyni zamanda ölkəmizdə və Azərbaycandan kənarda yaşayan alim və ziyalılarımız, ən vacibi isə ölkə rəhbərliyimizin siyasi iradəsi var. Düşünürəm ki, bütün bunların hamısı "Qarabağ" Universitetinin dünyanın ən öndə gedən universitetləri ilə rəqabət apara biləcək səviyyədə qurulması və inkişaf etməsi üçün zəmin yaradacaq.

*Professor Ədalət Muradov Ağdamda yaradılacaq universitetlə bağlı mütəxəssis yanaşması da ortaya qoyaraq söyləyir ki, "Qarabağ" Ağdamda qurulacaq yeni universitetin adı olmaqla yanaşı, həm də güclü bir universitet brendi olacaqdır.*

*Bu brendin özəllikləri isə belə ola bilər: - "tələbə mərkəzli" universitet; öyrətməyə vida edən və öyrənməyi əsas tutan təhsil modeli; fərdi təhsil trayektoriyası əsasında təhsil verən universitet; təhsilin əsas keyfiyyət amili kimi hər bir təhsilalanın "təhsil izi"; XXİ əsr vərdiş, bacarıq və kompetensiyaların formalaşmasına zəmanət verən adaptiv təhsil modeli; distant təhsilin yaratdığı üstünlükləri maksimal dərəcədə reallaşdıran universitet; dünyada öndə olan universitetlərin və tanınmış peşəkarların potensialından bəhrələnən şəbəkə universiteti; rəqəmsal iqtisadiyyat sahəsində ixtisaslaşan tədris və elm mərkəzi; xətti-funksional idarəetməni proseslərin idarəedilməsilə əvəzləyən universitet; "Smart universitet"; Şəhid övladlarının təhsil aldığı universitet.*

### Dünya miqyaslı şəhər

*Müsahibimiz deyir ki, Ağdam dünya miqyaslı bir şəhər olacaq və dövlət başçımızın da dediyi kimi, bənzəri olmayan smart şəhərə çevriləcək.*

- Cənab Prezidentin Qarabağın bərpası ilə bağlı verdiyi sərəncamlardan biri də məhz Qarabağ Dirçəliş Fondunun yaradılmasıdır. Qısa müddət ərzində fondun müşahidə şurası da formalaşdı ki, mən də həmin müşahidə şurasının üzvüyəm. Artıq bu fondun fəaliyyət planı hazırlanıb, icraçı direktoru təyin olunub. Qarabağ Dirçəliş Fondu Qarabağın bərpasında çox yaxından iştirak etmək iddiasındadır. Düşünürəm ki, bu fondun potensialı yetər ki, Qarabağda yeniliklərə imza atsın. Təbii ki, burada söhbət Qarabağda dağılmış evlərin yerində yenilərini tikməkdən, infrastrukturun bərpasından, sənaye müəssisələrinin yaradılmasından getmir. Söhbət burada həmin işlərin artıq keyfiyyətcə tamamilə yeni bir səviyyədə görülməsindən gedir.

Bu baxımdan düşünürəm ki, əsası qoyulan Sənaye Məhəlləsi Ağdamda, Qarabağda innovativ inkişafın əsası olacaq. Çünki cənab Prezident bütövlükdə ölkəmizdə, xüsusilə Qarabağda rəqəmsallaşmanı önə çəkir. Bu baxımdan Qarabağ, həm də Azərbaycanın gələcək iqtisadi inkişafı baxımından önəm kəsb edən rəqəmsal iqtisadiyyat modelinin sınaq meydanı olacaq. Düşünürəm ki, orada qurulacaq rəqəmsal iqtisadiyyat bütün ölkənin lokomotivi olacaq. Prezident İlham Əliyev Qarabağda nə yaradırsa, tamamilə yeni olacaq və bu yeniliklər dünyada mövcud olan analoqlardan qat-qat yüksəkdə dayanacaq.

### Yeni idarəetmə fəlsəfəsi

- Qarabağda tətbiq olunacaq "ağıllı" kənd, "ağıllı" şəhər ("smart" kənd, "smart" şəhər) haqqında çox danışırıq. Amma deməliyik ki, bunlar tutaq ki, təkcə işıqların tənzimlənməsi, zibil qutularının dolması ilə bağlı xəbərin ötürülməsi, havanın çirkliliyinin göstərilməsi ilə əlaqədar deyil.

Bu, yeni idarəetmə fəlsəfəsidir və cənab Prezidentin idarəetməsinin özəyində duran məsələdir. "Smart" kənd, "smart" şəhər ilk öncə demokratik idarəetməni təmin edir. Artıq burada yuxarıdan diktat prinsipi özünü doğrultmur. Yəni, müxtəlif icra, dövlət orqanlarının koordinasiyası olmadan, "smart" kənd, "smart" şəhərin idarə edilməsi mükün deyil. Burada koordinasiya, əlaqə olmalıdır. Şübhəsiz, "smart" şəhər, "smart" kənd həm də biznesin inkişafını tələb edir. Çünki onların idarə edilməsi biznesin əsasında qurulmalıdır. Əvvəlcə onların dövlət vəsaiti hesabına qurulması həyata keçirilə bilər, amma "smart" kənd, "smart" şəhərin idarə edilməsi şübhəsiz, vəsait tələb edir ki, bu da həmin vəsaitin qazanılması üçün əlverişli biznes mühitini yaradır.

Bütövlükdə, "ağıllı" kənd, "ağıllı" şəhər özlüyündə cənab Prezidentin siyasətini əks etdirən, bütün o dəyərləri özündə ehtiva edən, dünya miqyasında yeni-yeni tətbiq edilməyə başlayan modeldir. Bu model 100 faiz şəffaflığı təmin edir və burada qərarlar süni intellektin topladığı məlumatlara əsasən verilir... Verilən qərarlar da düzgün məlumatlara əsaslandığı üçün nəticə də yüksək olur...

### Evlər sökülüb, ağaclar məhv edilib, torpaq yandırılıb...

- Onu deməyə bilmərəm ki, Ağdamda gördüklərim, işğal dövründə burada törədilən vəhşiliklər erməni faşizminə nifrətimi sonsuz artırdı. Yəni bu, sözlə ifadə edilə bilinməyəcək bir mənzərədir. Binalar sökülüb aparılıb, ağaclar məhv edilib, torpaq yandırılıb...

Amma bununla yanaşı, öz xalqıma məhəbbətim də sonsuz oldu ki, Azərbaycan xalqı heç zaman erməni vandallarının törətdiklərini edə biləcək xalq deyil. Azərbaycan xalqının daxilində oturmuş, mənəvi prinsiplər, dəyərlər heç zaman ermənilərin törətdikləri əməllərə yol verməzdi...

Cənab Prezident də Ağdamdakı çıxışında bu məqamı vurğuladı ki, biz hətta müharibə aparanda belə mülki əhaliyə zərər verməmək üçün əlimizdən gələni etdik və onun nəticəsində də mülki erməni əhalisi olduqca az sayda zərər görmüş oldu. Bu baxımdan da şübhəsiz ki, Azərbaycan xalqı fərqli və çox dəyərli xalqdır...

### Torpaqdan pay ola bilməz

- Ali Baş Komandanın 44 günlük müharibə ərzində əsas şüarı o idi ki, "Qarabağ Azərbaycandır!" Həqiqətən də o zaman bütün Azərbaycanın gözü Qarabağda idi və bu, indi də belədir...

Buna görə də Qarabağı orada yaşayanlar daha çox sevir deməzdim. Sadəcə onların ruhu, xoşbəxt illəri, valideynli günləri, qayğısız uşaqlıqları oradadır. Onlar hansısa başqa bir rayonda torpaq alıb ev tikə, hər cür şərait yarada bilərlər, amma ora onlar üçün Qarabağ deyil! Qarabağı fərqli edən, onun mühiti, havası, suyudur...

Əvvəl elə sizin qəzetə verdiyim müsahibəmdə də demişdim ki, Ağdam, döğulduğum kənd mənim üçün bütöv ailə tablosudur. Mən orada ata-anam, bacı-qardaşımla birgə olmuşam. Buna görə də özüm üçün Ağdamdan başqa xoşbəxt dünya təsəvvür edə bilmirəm...

Bütün ağdamlılar üçün bu belədir və onlar tezliklə doğma yurda qayıtmaq həsrəti ilə yaşayırlar. Və artıq qayıdış üçün təməl də atılıb...

Bu xoşbəxtliyə görə bütün azərbaycanlılar kimi, ağdamlılar da Ulu Öndərə borcludurlar. Çünki Ulu Öndər siyasətinin uğurla davam etdirilməsi, cənab Prezidentin Qarabağın işğaldan azad edilməsi missiyasını reallaşdırması itmiş ümidlərimizi geri qaytardı.

Bizi daha da qürurlandırdı. Göstərdi ki, torpaqdan pay ola bilməz. Bizim dəyər verdiyimiz o torpaq Vətəndir. Vətən isə içimizdə olan mənəvi ruh toplumudur. Bunu heç yerdən almaq olmaz. Mən azərbaycanlıyam, burada yaşayıram, bura mənim vətənimdir, amma Ağdamda o torpağın üstündə duranda aldığım hiss tamam fərqlidir. Sanki o torpaqda daha çox enerji əldə edirəm.

Ağdamda olanda oradakı havanın iyi uşaqlıq illərimin qoxusunu gətirdi burnuma...

### O torpağa ayaq basanda özümü çox güclü hiss etdim...

- Mən Ağdamın torpağına ayaq basanda özümü çox güclü hiss etdim. Şübhəsiz, burada Prezident faktoru həlledicidir. Birincisi onun iştirakı ilə Ağdamın təməl daşının qoyulmasında iştirak edirsən... Bu da hər birimizdə o əminliyi yaradırdı ki, Ağdam bərpa olunacaq və əvvəlkindən də qat-qat gözəl Ağdam olacaq...

Mayın 28-də cənab Prezident Ağdama təməlqoyma mərasiminə çox yüksək əhvali-ruhiyyə ilə gəldi, orada iştirak etdi, bütün ağdamlılarla, oradakı ziyalılarla səmimi söhbət etdi. Dövlət başçısını yola salanda da hər kəsdə böyük ruh yüksəkliyi var idi. Deyərdim ki, gələcəkdə bizi gözləyən uğurun əsası da elə bu ruhdur. Buna görə də çox xoşbəxtik ki, İlham Əliyev Ağdamın ruhunu özünə qaytarır...

Cənab Prezident Qarabağın bərpa olunmasını hər kəsdən çox istəyir və əminəm ki, bunu da tezliklə həyata keçirərək növbəti möcüzəyə imza atacaq...

İllər, onilliklər, yüzilliklər keçəcək, nəsillər dəyişəcək, Ağdam bərpa olunacaq, inkişaf edəcək, dəyişəcək...

Dəyişməyən isə yeganə bir şey olacaq: Azərbaycanın Müzəffər Ali Baş Komandanının yazdığı tarix! İllər keçdikcə, tarixdə bu zəfəri yazmış şəxsiyyətin adı böyüyəcək, parıltısı artacaq və heç zaman dəyişməyəcək...

Şübhəsiz ki, Qarabağdan danışarkən şəhidlərimizi anmaya bilmərik. Onların hər birinə Ulu Tanrıdan rəhmət diləyirəm. Ruhları qarşısında baş əyir, qazilərimizə də möhkəm cansağlığı arzulayıram...

### Ana Vətənin cənnət qoxusu

*Bəli, bu da taleyin bir bəxtəvər qismətidir ki, daha Qarabağla bağlı yazılarımızdan özləm, qəhər, qüssə boylanmır... Sadəcə bu xoşbəxt günləri Vətən həsrəti ilə dünyadan köçən əzizlərimizin görməməsidir bizləri üzən...*

*Elə Ədalət müəllimin də qəhəri anasının ən böyük arzusunun yerinə yetdiyini görmədən həyatla vidalaşması idi... Axı o, əllərini açıb Güllücənin azad olunması üçün Tanrıya dualar etmiş, əhd etmişdi ki, o zaman doğma torpağına dizin-dizin sürünərək gedəcək... Amma təəssüf ki, bu günləri görmək nəsibinə yazılmayıbmış...*

*Amma budur, yaddaşında həmin ağrı-acıların, qüssəli hadisələrin özü xatirəyə çevrilməyə başlayır. Yenə Ağdama, kəndləri Güllücəyə gedir. İnsanlarla qaynayıb daşan tanış küçələrdən keçir, evlərin pəncərələrindən ucalan şən-şaqraq gülüşlər gəlir qulağına, doqqazlarına yaxınlaşır, intizarla onun yolunu gözləyən anasının qollarına atılır...*

*Əsən ılıq yaz küləyi burnuna yenicə çiçəkləmiş albalı ağaclarının ətrini gətirir...*

*Ana Vətənin cənnət qoxusunu ciyərlərinə çəkib dərindən bir ah çəkir...*

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

## 5 İyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günüdür

# Müasir və səmərəli suvarma sistemi ərzaq bolluğunun təminatıdır

Bütün peşə sahələrində çalışanların, o cümlədən su təsərrüfatı və meliorasiya işçilərinin əməyi məsuliyyətli və şərəflidir. Məhz meliorasiya və su təsərrüfatı işçilərinin əməyi ilə susuz çöllər, ərazilər dirçəlir, şorlaşmış torpaqlar duzlardan təmizlənərək münbitləşir, bataqlıqlaşmış sahələr qurudulur, bəndlər və dambalar tikilməklə çayların axınları tənzimlənir, sel və daşqınların zərərli təsirlərinin qarşısı alınır və nəhayət, ölkə əhalisinin ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə etibarlı təminatı üçün əlverişli şərait yaradılır.

Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda 1996-cı il iyunun 5-də Ulu Öndər Heydər Əliyev tərəfindən "Meliorasiya və İrriqasiya haqqında" qanun imzalanmışdır. 24 may 2007-ci il tarixdə isə Prezident İlham Əliyev hər il iyunun 5-ni "Meliorator günü" kimi təsis etmişdir. Daha sonra dövlət başçısının 2014-cü il mayın 14-də imzaladığı yeni sərəncamla həmin gün "Su təsərrüfatı və Meliorasiya İşçiləri Günü" peşə bayramı kimi qeyd olunur.

Aparılmış təhlillər göstərir ki, meliorasiya və irriqasiya işlərinə Azərbaycanda keçən əsrin əvvəllərində başlanılmasına baxmayaraq, onun daha geniş inkişafı Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrə təsadüf edir. Bu vaxtdan etibarən ölkənin kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə iqtisadiyyatın bütün sahələrində xüsusi bir yüksəliş dövrü başlamışdır. 1971-1975-ci illərdə respublikada meliorasiya işlərinə 1966-1970-ci illərdəkinə nisbətən iki dəfədən çox vəsait ayrılmışdır. Bu müddətdə 23,5 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilmiş, 156,8 min hektar suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 110,3 min hektar sahədə suvarma şəbəkələrinin yenidənqurulması, 133,2 min hektar sahədə hamarlama işlərinin aparılması təmin olunmuş, 248,6 min hektar qış otlaq sahələrində su təminatı sistemləri yaradılmışdır.

1976-1982-ci illərdə Heydər Əliyevin xüsusi diqqət və qayğısı sayəsində su təsərrüfatı və meliorasiya obyektlərinin tikintisi, torpaq fondunun sağlamlaşdırılması və suvarma- drenaj sistemlərinin yenidənqurulması sahəsində aparılan işlərin miqyası daha da genişləndirilmişdir. Bu illərdə meliorasiya tədbirlərinə yönəldilən vəsaitin həcmi 1971-1975- ci illərdəkinə nisbətən 2,4 dəfə artmış, 605 min hektar sahədə suvarma sistemləri yenidən qurulmuş, 89,6 min hektar yeni suvarılan sahələr istifadəyə verilmiş, 137 min hektar torpaq meliorativ cəhətdən yaxşılaşdırılmışdır. Eləcə də Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə meliorasiya fondu 2 dəfədən çox artmış, məhz bu fondların yaranması hesabına suvarma əkinçiliyi özünü doğrultmuş və yüksək səmərə vermişdir. Belə ki, suvarılan torpaqların məhsuldarlığı iki dəfəyə yaxın, kənd təsərrüfatı məhsullarının istehsalı bir neçə dəfə artmışdır. Konkret rəqəmlərə müraciət edək: 1970-ci ilə nisbətən 1980-ci ildə respublikada taxıl istehsalı 2,1, pambıq 2,6, üzüm 4,6, tərəvəz və tütün 2,3, meyvə 4,4, çay yarpağı 2,2, mal-qara və quşların baş sayı 1,4, süd 1,8 dəfə artmışdır.

Həmin illər illik su balansının 30 faizinin öz ərazimizdə, qalan 70 faizinin isə tranzit xarakterli olması yeni suvarılacaq sahələrin dövriyyəyə verilməsi üçün suvarma mənbələrinin yaradılması problemini qarşıya qoymuşdur. Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində dağlıq zonalarda kənd təsərrüfatı bitkilərinin su təminatının yaxşılaşdırılması üçün kiçik suvarma obyektləri tikilmişdir.

1993-cü ildə Ulu Öndərin ikinci dəfə respublika rəhbərliyinə gəlişi ilə meliorasiya və su təsərrüfatı sahəsinə əvvəlki diqqət və dövlət qayğıkeşliyi bərpa olunmuş, sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Onun göstərişləri əsasında Azərbaycana ayrılan xarici investisiyalar ilk növbədə bu sahənin inkişafına yönəldilmiş, sahənin yeni təsərrüfatçılq prinsiplərinə uyğun inkişafını təmin etmək üçün islahatlara başlanılmış, onların normativ-hüquqi bazası yaradılmışdır. Bu məqsədlə 40-dan artıq normativ-hüquqi sənəd hazırlanmışdır ki, onlardan da ən mühümü 1996-cı ildə imzalanmış "Meliorasiya və irriqasiya haqqında" qanundur. Bu qanunla meliorasiya və irriqasiya sahəsində fəaliyyətin əsas istiqamətləri və prinsipləri, meliorasiya və irriqasiya obyektlərinin mülkiyyət hüququ müəyyənləşdirilmişdir. "Meliorasiya və irriqasiya haqqında" qanuna uyğun olaraq 1997-ci il yanvarın 1-dən ölkədə mərhələ-mərhələ sudan pullu istifadəyə keçilməsinə başlanılmışdır.

Bu gün Ulu Öndərin siyasi xətti və ideyaları Prezident İlham Əliyev tərəfindən layiqincə və uğurla davam etdirilir. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlət quruculuğu sahəsində, iqtisadiyyatımızın yenidən qurulmasında, davamlı inkişaf yoluna çıxmasında, milli adət-ənənələrimizin qorunub saxlanılmasında və digər istiqamətlərdə böyük nailiyyətlər əldə olunur, ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atır. Ölkəmizin beynəlxalq nüfuzu artır, Azərbaycanda aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Əzəli və tarixi ərazimiz olan doğma Qarabağın işğaldan azad edilməsi isə Azərbaycanın son 200 illik tarixinin ən şanlı səhifəsidir.




Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ötən dövrdə meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərinin davam etdirilməsi və digər sahələrdə mühüm tədbirlər həyata keçirmişdir. Bu gün ASC tərəfindən ümumi sututumu 22 milyard kubmetr olan 138 su anbarından istifadə edilir, 19 hidroqovşaq, 51693 km suvarma kanalı, 31958 km kollektor-drenaj şəbəkəsi, 1066 nasos stansiyası, 138,3 min müxtəlif hidrotexniki qurğu, 8282 subartezian quyusu, 2073 km-dən artıq sel və daşqınlardan mühafizə bəndi, 400 min ha qış otlaq sahələrinin su təminatına xidmət edən digər mühüm dövlət əhəmiyyətli su təsərrüfatı sistemləri və qurğuları istismar olunur.

Bütün maliyyə mənbələri hesabına 2004 - 2020-ci illərdə 4,5 min kilometr (km) uzunluğunda suvarma kanallarının, 3,3 min km uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidənqurulması və bərpası, 473 min hektar sahədə torpaqların su təminatının və 303 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 202 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Mövcud torpaq mühafizə bəndlərinin 800 km-dən artıq hissəsi əsaslı surətdə hündürləndirilmiş və möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 200 km muhafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 2990 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Ümumi sutututmu 456 milyon kubmetr olan 4 su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilmiş, eləcə də ümumi sutututmu 15,5 milyon kubmetr olan 3 su anbarı isə (Pirsaatçay, Zoqolovoçay, Ləvain) təmir- bərpa edilmişdir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xanarx kanalının tikintisi 2006-cı, Samur çayı üzərində yerləşən Baş Suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında Baş su durulducunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin və bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidənqurulması işləri 2007-ci ildə başa çatdırılmışdır. 500 min hektar suvarılan sahələrdən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan kollektorunun 3-cü hissəsinin tikintisi isə 2006-cı ildə başa çatdırılaraq Mil-Qarabağ kollektoru ilə birləşdirilmişdir. Bunlardan başqa, Samur-Abşeron kanalının 50-ci km-dən suyun Taxtakörpü su anbarına verilməsi məqsədi ilə 2008-ci ildə tikintisinə başlanılmış 32 km-lik Vəlvələçay-Taxtakörpü kanalının, ümumi sututumu 268,4 milyon kubmetr olan Taxtakörpü su anbarının (ümumi gücü 25 MVt olan Su Elektrik Stansiyası ilə birlikdə) və uzunluğu 108 km-ə yaxın olan Taxtakörpü-Ceyranbatan kanalının tikintisi işləri 2013-cü ildə başa çatdırılmışdır.





2014-cü il noyabrın 14-də Prezident İlham Əliyevin iştirakı ilə istismara verilən Şəmkirçay su anbarı zonasında 2015-ci ildə əkin sahələrini suvarma suyu ilə təmin edən 60,5 km uzunluğunda magistral kanalların tikintisi başa çatdırılmışdır. Tovuz və Şəmkir rayonlarının 20000 hektara yaxın əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə imkan yaradan və ümumi sututumu 20 milyon kubmetr olan Tovuzçay su anbarının inşası isə 2016-cı ildə yekunlaşmışdır.

Prezidentin ölkədə taxılçılığın, pambıqçılığın, tütünçülüyün, baramaçılığın və digər sahələrin inkişafı, eləcə də aqroparkların və iri təsərrüfatların yaradılması ilə əlaqədar verdiyi tapşırıqların icrası olaraq ASC meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sahələrin genişləndirilməsi, sel və daşqın sularına qarşı mübarizə və digər istiqamətlərdə əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də fəaliyyətini davam etdirmişdir.

Aqroparkların, iri taxılçılıq, pambıqçılıq və digər təsərrüfatların yaradılması məqsədi ilə Şəmkir maşın kanalının nasos stansiyasının suvermə qabiliyyətinin artırılması və onun birinci növbəsinin təmir-bərpası üzrə kanalın 33 km-lik vacib hissələrində yenidənqurma işləri yerinə yetrilmişdir. Şəmkirçay su anbarından Şəmkir rayonunun 2500 ha torpaq sahəsinə suyun verilməsi üçün Şəmkirçay təsərrüfatlararası paylayıcı kanalların tikintisi üzrə 14536 paqonmetr (pm) paylayıcı suvarma boru kəmərləri qurğularla birlikdə çəkilmişdir. Goranboy rayonunun 4950 ha torpaq sahəsinə suvarma suyunun verilməsi üçün Şəmkir maşın kanalının II növbəsinin zonasında 17404 pm uzunluğunda təsərrüfatlararası paylayıcı kanalların tikintisi işləri aparılmışdır. Arazın yeni qol kanalının sağ sahilində yerləşən 12863 ha torpaq sahəsinin meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün Əzizbəyov adına kollektorun 65,7 km hissəsinin yenidənqurulması və 27438 pm suyığıcı drenlərin tikintisi üzrə işlər yerinə yetrilmiş, sol sahilində 14200 ha yeni torpaq sahəsinin suvarılması üçün 15925 pm dəmirbeton kanalların qurğularla birlikdə və 12000 pm qəza sutullayıcısının tikintisi işləri başa çatdırılmışdır. Sabirabad rayonunun 5000 ha qış otlaq sahəsinin meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün 18960 pm qapalı suyığıcıların və 169720 pm qapalı drenlərin qurğularla birlikdə tikintisi işləri yerinə yetrilmişdir.

Bunlarla yanaşı, Yevlax və Goranboy rayonlarında 2960 ha torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün Yuxarı Qarabağ kanalı üzərində məhsuldarlığı 2 kbm/san olan nasos stansiyasıının, 17052 pm uzunluğunda basqılı boru kəmərinin, 6400 pm selötürücü kanalların və 2 ədəd 100 min kubmetr həcmində su hovuzunun tikintisi işləri görülmüşdür. Ağcabədi rayonu ərazisində 2500 ha əkin sahəsi olan təsərrüfatın suvarma suyu ilə təmin edilməsi üçün Yuxarı Mil kanalından qidalanan 100 min kubmetr həcmində su hovuzunun, Füzuli rayonu ərazisində 1200 ha əkin sahəsi olan təsərrüfatın suvarma suyu ilə təmin edilməsi üçün Yuxarı Mil kanalında nasos stansiyasının, 3 km uzunluğunda basqılı boru kəmərinin, 50 min kbm həcmində su hovuzunun tikintisi işləri görülmüşdür. Masallı rayonunun 2000 ha əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün isə 24, Şamaxı rayonunun 2500 ha əkin sahəsinin su təminatının yaxşılaşdırılması üçün 7 sututarında zəruri təmir-bərpa işləri tamamlanmışdır. Eyni zamanda Xaçmaz rayonunda Aqroparkın 400 ha yeni torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi ilə bağlı 50 min kubmetr həcmində su hovuzunun və boru kəmərinin tikintisi başa çatdırılmış, Şəki və Oğuz rayonları ərazisində yaradılacaq Aqroparkın 10000 ha torpaq sahəsində meliorativ tədbirlərin aparılması üçün 17600 pm uzunluğunda qapalı kollektor və suyığıcıların qurğularla birlikdə tikintisi işlərinə başlanılmış, Tovuz rayonunun Düz Qırıqlı kəndində yaradılan aqroparkın 550 ha əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün Kür çayı üzərində nasos stansiyasında və sugötürücü qurğuda tikinti işləri tamamlanmışdır.

Həmçinin Ağsu rayonunun 2000 ha torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün Ağsuçay çayında suqəbuledici qurğunun tikintisi və uzunluğu 11,6 km olan Qazanarx kanalının 1000 pm hissəsinin yenidən qurulması ilə əlaqədar tikinti işləri həyata keçirilmiş, Qusarın Zuxul kəndinin 200 ha əkin sahəsinin su təminatının yaxşılaşdırılması üçün suqəbuledici qurğunun, 1340 pm boru kəmərinin, 2265 pm beton kanalın, aqreqatlı nasos stansiyasının və 2560 pm torpaq kanalın bərpası işləri tamamlanmışdır.

Bunlardan əlavə, Prezidentin tapşırığına əsasən, Ələt-Astara magistral avtomobil yolunun Salyan, Neftçala və Biləsuvar rayonlarından keçən hissəsində yerləşən 20 min hektar qış otlaq sahələrini suvarma suyu ilə təmin etmək üçün Kür çayı üzərindəki nasos stansiyasının və magistral kanalın suvermə qabiliyyətinin artırılması məqsədi ilə layihə sənədlərinin hazırlanması başa çatdırılmışdır. Saatlı rayonunun 20 min hektardan çox əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün isə Kür çayından əlavə suyun verilməsi və Bərdə rayonunda 3150 ha torpaq sahəsinin suvarma suyu ilə təminatı tədbirləri üzrə layihə-smeta, həmçinin Qazax, Zərdab, Astara, Ucar, Ağcabədi, İmişli, Xaçmaz, Şəki rayonlarında əkin sahələrinin su təminatının yaxşılaşdırılması və Araz çayı üzərindəki Bəhrəmtəpə hidroqovşağında qəza vəziyyətinin aradan qaldırılması tədbirləri üzrə layihə sənədləri hazırlanmışdır. Paralel olaraq suvarma suyundan səmərəli istifadə edilməsi və su itkilərinin qarşısının alınması tədbirləri üzrə Qazax rayonunun Xanlıqlar, Kəmərli, Aslanbəyli, Qaymaqlı və İkinci Şıxlı kəndlərinin əkin sahələrini su ilə təmin etmək məqsədi ilə su nasos stansiyalarının və yeraltı suvarma şəbəkələrinin bərpası ilə əlaqədar tikinti işləri davam etdirilmişdir.

Bu dövrdə həmçinin Prezidentin müvafiq sərəncamları ilə respublikanın 39 şəhər və rayonunun 338 yaşayış məntəqəsində 9547 ha əkin sahəsinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 443 subartezian quyusunun layihə-smeta sənədləri hazırlanmaqla qazılması işləri sona çatdırılmışdır.

Sel və daşqın təhlükəli çaylarda sahilbərkitmə və qəza vəziyyətinin aradan qaldırılması üzrə tədbirlərə gəldikdə isə, Qəbələ, Oğuz, Ağsu, Zaqatala, Balakən, Astara, Lənkəran, Qax, Şəki, Xaçmaz və Ağcabədi rayonlarının ərazisindən keçən ən təhlükəli çaylarda 3795 pm uzunluğunda istinad divarının tikintisi tamamlanmış və Astara sərhəd çayında 7292 pm məcratəmizləmə üzrə tikinti işləri yerinə yetrilmişdir. Eyni zamanda Ağstafa rayonunun Köçəsgər kəndində "Acı" dərənin sel sularından mühafizə tədbirlərinin, Qax rayonu ərazisində Zərnəçay çayında sahilbərkitmə işlərinin, Quba rayonunun Qonaqkənd kəndinin Vəlvələçay və Quba şəhərinin Qudyalçay çaylarının sel sularından mühafizəsi tədbirlərinin layihə sənədlərinin hazırlanması üzrə işlər yerinə yetrilmişdir. Habelə Kür, Araz və onlara qovuşan dağ çayları boyunca salınmış torpaq mühafizə bəndlərində möhkəmləndirmə işləri görülmüş və 39794 kubmetr həcmində daş və beton məmulatları ilə sahilbərkitmə işləri yerinə yetirilmişdir. Eyni zamanda suvarma sistemlərində və kollektor-drenaj şəbəkələrində 72,4 mln. kubmetr həcmində lildən təmizləmə işləri aparılmış, 16300 km suvarma, 3215 km kollektor-drenaj sistemləri təmizlənmiş, 5958 hidrotexniki qurğu, 6116 subartezian quyusu, 343 nasos stansiyası təmir edilmişdir. Çay məcralarında isə 20,2 mln. kubmetr həcmində məcratəmizləmə işləri aparılmış, 6,8 min kubmetr şax-daş və faşın, 3,5 min kubmetr qabion bəndlər quraşdırılmış və daş-beton bəndlərdə 24,4 min kubmetr həcmində təmir işləri yerinə yetirilmişdir.

Prezidentin 27 iyul 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022- ci illər üçün Tədbirlər Planı"nın icrası çərçivəsində ASC tərəfindən ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatlarından səmərəli istifadə edilməsi və su itkilərinin qarşısının alınması üçün müasir texnologiyalara əsaslanan ölçmə cihazlarının quraşdırılması, alternativ mənbələrdən, o cümlədən təmizlənmiş tullantı, kollektor- drenaj sularından, ölkə ərazisində antropogen təsirlər nəticəsində formalaşan sututarların suyundan istifadə məqsədi ilə ilkin olaraq 22 hidroqovşaq və suvarma kanallarının yenidən qurulmasının texniki- iqtisadi əsaslandırmasının və layihə sənədlərinin hazırlanmasına başlanılmış, eləcə də Əlicançay su anbarının layihə sənədlərinin hazırlanması davam etdirilmiş, Qəbələ rayonu ərazisində Yengicə su anbarının tikintisi üzrə hazırlıq işlərinə start verilmişdir.

Qeyd edək ki, ASC tərəfindən ölkəmizin işğaldan azad olunmuş ərazilərində meliorasiya və su təsərrüfatı kompleksinin bərpasını və gələcək inkişafını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində meliorasiya və su təsərrüfatı kompleksinin bərpası və inkişafı üzrə Proqram" hazırlanmışdır. Proqramın məqsədi işğaldan azad olunan ərazilərdə suvarılan torpaqların kənd təsərrüfatında istifadəsinə şərait yaratmaq üçün ilkin mərhələdə onların iş rejimlərinin bərpası, sonrakı mərhələdə bu obyektlərin müasir səviyyədə yenidən qurulması və inkişafına nail olmaqla idarə edilməsinin səmərəli təşkilidir.

2021-ci ildə ASC meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi, yenidənqurulması işlərinin davam etdirilməsi üzrə təkliflərini aidiyyəti qurumlara təqdim etmişdir. Sudan istifadə planına əsasən 2021-ci ildə 1407387 ha sahədə kənd təsərrüfatı bitkilərinin, o cümlədən 514198 ha sahədə taxıl, 100844 ha sahədə pambıq, 2584 ha sahədə tütün, 430414 ha sahədə yem bitkiləri, 71736 ha sahədə bostan-tərəvəz, 141682 ha sahədə çoxillik bitkilər və 145929 ha həyətyanı sahələrin vegetasiya suvarılması üçün mənbələrdən 10233 mln. kubmetr həcmində suyun götürülməsi və ayrıclardan təsərrüfatlara 7283 mln. kubmetr suyun verilməsi nəzərdə tutulmuşdur.

Suvarma mövsümünə hazırlıqla əlaqədər ASC yerli istismar idarələri tərəfindən cari ilin birinci rübündə 825 hidrotexniki qurğu, 175 hidropost, 47 nasos, 867 subartezian nasosları təmir edilmiş, suvarma və kollektor-drenaj şəbəkələrində 9716 min. kubmetr həcmində lildən təmizləmə işləri aparılmışdır. Həmçinin çay məcralarında 2510 min kubmetr həcmində məcratəmizləmə işləri aparılmış, 904 kubmetr şax-daş və faşın, 350 kubmetr qabion bəndlər quraşdırılmış və 3861 kubmetr həcmində daş-beton bəndlər təmir edilmişdir.

Bu il vegetasiya suvarmasını mütəşəkkil keçirmək, kənd təsərrüfatı bitkilərinin sudan istifadə planına uyğun olaraq su ilə təmin etmək, mövcud su ehtiyatlarını ayrı-ayrı rayonlar və su istifadəçiləri arasında limitlər əsasında bölüşdürülməsini təmin etmək üçün də müvafiq tədbirlər həyata keçirilir. Bundan əlavə, Prezidentin 27 iyul 2020- ci il tarixli sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına daxil olan 8 suvarma kanalında Texniki-iqtisadi əsaslandırma və layihə sənədlərinin hazırlanmasının başa çatdırılması nəzərdə tutulur. Eyni zamanda cari il Suqovuşan hidroqovşağından suyun əkin sahələrinə çatdırılması üçün işğaldan azad olunmuş Tərtərçay Sol Sahil kanalının başlanğıc hissəsinin yenidən qurulması işlərinə başlanılması planlaşdırılır.

Bu il Şəmkirçay su anbarı zonasında magistral və paylayıcı kanalların tikintisi, Şabran rayonunda mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi tədbirləri, iri təsərrüfatların və aqroparkların yaradılması nəzərdə tutulmuş obyektlər üzrə Araz çayının Yeni qolundan suyun yeni suvarılacaq torpaq sahələrinə verilməsi üçün paylayıcı kanalların tikintisi, Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlər də davam etdiriləcək. Həmçinin Prezidentin 26 fevral 2021-ci il tarixli sərəncamı ilə əhalisi 489 min nəfərə yaxın olan 38 şəhər və rayonunun 177 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı sahələrin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə 200 subartezian quyusunun layihələndirilməsi və qazılması nəzərdə tutulur.

Məlum olduğu kimi, cari il aprelin 5-də Prezident İlham Əliyev bir daha meliorasiya və su təsərrüfatının prioritet sahə olduğunu bildirmiş, sahənin inkişafı ilə bağlı ASC-nin qarşısında mühüm vəzifələr qoymuşdur. Dövlət başçısı meliorasiya və su təsərrüfatı sahəsinə böyük diqqət və qayğı göstərildiyini, hazırkı dövrdə kənd təsərrüfatının inkişafında bu sahənin əhəmiyyətinin daha da artdığını, son illər keçmiş sovetlər dönəmindən qalmış, yararsız vəziyyətə düşmüş su təsərrüfatı obyektlərində böyük həcmdə təmir-bərpa işlərinin aparıldığını, köhnə infrastrukturun təmir-bərpası ilə bağlı əsaslı işlər görüldüyünü, bir neçə su anbarının inşa edildiyini, Taxtakörpü su anbarının tikilməsi ilə Bakının su təchizatı ilə bağlı yarana biləcək böyük problemlərin qarşısının alındığını, Şəmkirçay su anbarının inşası sayəsində ölkənin şimal-qərb bölgəsində min hektarlarla suvarılmayan əraziyə su verildiyini, meliorativ tədbirlərin böyük əhəmiyyət daşıdığını, su anbarlarının tikintisinin hər zaman prioritet sahə olduğunu və bundan sonra da olacağını qeyd etmişdir.

Bütün bunlarla bərabər, Prezident tərəfindən suyun səmərəli, məqsədyönlü və qənaətlə istifadəsində su itkilərinin qarşısının alınmasında çatışmamazlıqların olduğu, kənd təsərrüfatının dayanıqlılığının məhz suvarmanın səmərəliliyi ilə bağlılığı, qarşıda duran vəzifələrin yerinə yetirilməsi ilə mövcud çatışmazlıqların aradan qaldırılması, idarəetmədə müasir yanaşmaların tətbiq olunması, müasir texnologiyaların ölkəmizə gətirilməsinin təmin olunması vacibliyi qeyd olunmuş və konkret tapşırıqlar verilmişdir. Ən qabaqcıl texnologiyaların tətbiqi ilə sudan səmərəli və qənaətlə istifadə edilməklə suvarmanın həyata keçirilməsinin təmin olunması, su itkilərinin qarşısı maksimum dərəcədə alınması, suyun paylanmasında, bölgüsündə səhlənkarlığa və ədalətsizliyə yol verilməməsi, növbətçilik qrafiklərinin tərtib olunması və bu qrafiklərə ciddi riayət edilməklə su xətlərinin üzərində quraşdırılmış qanunsuz birləşmələrin nəzarətə götürülməsinin vacib olduğu bildirilmişdir.

Bu tapşırıqların icrası olaraq cari ildə ASC tərəfindən balansda olan meliorasiya və su təsərrüfatı obyektlərinin elektron məlumat bazasının, suvarılan torpaqların meliorativ vəziyyətinə dair coğrafi informasiya sisteminin, sahə üzrə idarə olunan suların vahid məlumat bazasının, maşın və mexanizmlərin GPS izləmə sisteminin, insan resursları, maliyyə və mühasibat uçotunda vahid elektron uçot bazasının yaradılması və elektron sənəd dövriyyəsinin təşkili nəzərdə tutulmuşdur.

Hazırda kollektivin qarşısında müasir idarəetmə sisteminin təşkili, innovativ metodların, yeni suvarma texnologiyasının və texnikasının tətbiqi, suvarma sistemlərinin istismarının və sudan istifadəedənlər birliklərinin işinin daha da təkmilləşdirilməsi, idarə edilməsi və digər bu kimi həlli vacib olan vəzifələr durur.

Əminik ki, biz çoxminli melioratorlar kollektivi olaraq bundan sonra daha məsuliyyətlə çalışacaq, bütün imkanlarımızı səfərbər edərək mövcud meliorasiya və irriqasiya sistemlərinin qorunub saxlanılmasını, onların istismarının lazımi səviyyədə həyata keçirilməsini, ölkəmizin tərəqqisi və iqtisadiyyatının daha da güclənməsi naminə sahənin durmadan inkişafını təmin edəcək, kənd təsərrüfatı məhsulları istehsalının artmasında və məhsul bolluğunun yaradılmasında öz töhfəmizi verəcəyik.

***Zaur MİKAYILOV,***
***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri***






# Sürətin Azərbaycan zirvəsi

## Bakı "Formula-1"in cari mövsümdə 6-cı mərhələsinə evsahibliyi edəcək

*Əvvəli 1-ci səh.*









Ölkəmizdə keçirilən son dörd yarış ərəfəsində paytaxtda hotellərin dolu olması yarışın iqtisadi baxımdan mühüm rol oynadığını nümayiş etdirdi. Auditoriyasına görə futbol üzrə dünya çempionatından və Olimpiya Oyunlarından sonra üçüncü yerdə olan "Formula-1" yarışına evsahibliyi etmək, ilk növbədə, ölkənin qüdrətindən xəbər verir.

Azərbaycan Prezidenti İlham Əliyev bu yarışın əhəmiyyətini yüksək qiymətləndirərkən deyib: "Formula-1" yarışının keçirilməsi hər bir ölkəyə nəsib olmur, hər bir ölkə bu məsuliyyəti öz üzərinə götürə bilmir və çətinlik çəkir. Ancaq biz bu yarışı uğurla keçirmişik. "Formula-1" yarışının Azərbaycanda keçirilməsinin ölkəmizin dünyada tanıdılması üçün müstəsna əhəmiyyəti vardır. Beş yüz milyon tamaşaçı auditoriyası olan bu yarışa bütün qitələrdə baxmışlar və şəhərimizin gözəlliyini, insanlarımızın qonaqpərvərliyini bütün dünya görübdür. Təsadüfi deyil ki, biz də bunu nəzərdə tuturduq, planlaşdırırdıq ki, bu yarışdan sonra ölkəmizə gələn turistlərin sayı dəfələrlə artacaq və artıb. Elə ölkələr var ki, bu il o ölkələrdən Azərbaycana gələn turistlərin sayı 30-40 dəfə artıb və bu proses davam edir".

### Bakı treki 5-ci dəfə pilotları gözləyir

"Formula-1" yarışlarının 2021-ci il mövsümü 23 mərhələdən ibarət olacaq. Azərbaycan yarışların cari mövsümdə 6-cı mərhələsinə evsahibliyi edəcək. Mövsümün ilk yarışı martın 26-da Bəhreyndə keçirilib, son yarışı isə noyabrın 27-də Əbu-Dabidə təşkil olunacaq.

Uzunluğu 6 kilometrdən bir qədər artıq olan Bakı Şəhər Halqası trekin uzunluğuna görə dünyada ikincidir. Unikal xüsusiyyətlərə sahib Bakı Şəhər Halqası elə təşkil olunub ki, yarış zamanı "Formula-1" avtomobilləri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan İçərişəhər Tarix-Memarlıq Qoruğunu, şəhərin müasir göydələnlərini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən Bakının ecazkar simasını görəcəklər. Şəhər treki pilotlardan xüsusi dəqiqlik tələb edən İçərişəhər ətrafı dar yoxuş hissəsi, inanılmaz sürət əldə etməyə imkan verən 2,2 kilometrlik dənizkənarı hamar hissəsi və s. bir sıra özəllikləri ilə yarışı canlı olaraq televiziya qarşısında izləyən "Formula-1" azarkeşləri üçün əsrarəngiz şouya çevriləcək.

Qeyd olunduğu kimi, Bakı Şəhər Halqası şəhərin düz mərkəzindən və ən gözəl məkanlarından keçir. Təşkilatçılar trekin marşrutunu seçərkən, ilk növbədə, məhz bu məqamı nəzərə almışlar. Bundan başqa, trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əks istiqamətində olacaq. Trekin ən geniş yeri 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan bölmələrində, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edəcək. Start və finiş xətti Azadlıq meydanında olacaq.

### 71 il əvvəl başlamış sürət yarışı

"Formula-1" yarışları paytaxtımızda 2016-cı ildən bəri keçirilir. Həmin il Avropa qran-pri yarışlarının Bakı mərhələsi adlandırılan yarış iyunun 17-19-da təşkil olunmuşdur. "Formula-1"in Bakı mərhələsində tarixdə ilk dəfə 21 mərhələdən ibarət yeni mövsümdə 11 komanda və 13 fərqli ölkədən dünyanın ən məşhur pilotları birincilik uğrunda mübarizə aparmışlar. Möhtəşəm yarışda dünya çempionu adını qazanmış 5 pilot iştirak etmişdir.

"Formula-1" üzrə dünya çempionatı birnəfərlik, açıq təkərli avtomobillərin yarışıdır. Yüksək statusa malik olan bu yarışlarda sürücülər pilot, avtomobillər isə bolid adlanır. İl ərzində müxtəlif ölkələrdə "Formula-1" üzrə mərhələ yarışları, başqa sözlə, qran-prilər təşkil olunur. Dünyada geniş tamaşaçı auditoriyası yığan bu turnirlər izlənmə sayına görə yalnız Yay Olimpiya Oyunlarından və futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarlarının maraq dairəsində olan "Formula-1" qran-priləri ilk vaxtlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanı əhatə edir. Yarışları Beynəlxalq Avtomobil Federasiyası (FİA) keçirir. 1904-cü ildə Parisdə yaradılmış federasiya avtomobil idmanı üzrə təşkil olunan bütün növ yarış və tədbirlərə cavabdehdir.

"Formula-1" üzrə ilk rəsmi dünya çempionatı 1950-ci il mayın 13-də İngiltərənin Silverstoun trekində təşkil olunmuşdur. Britaniya kral ailəsinin də maraqla izlədiyi turnirdə 21 bolid qələbə uğrunda mübarizə aparmışdır. Həm təsnifat, həm də əsas mərhələdə finiş xəttinə birinci çatan "Alfa Romeo"nun italiyalı pilotu Cüzeppe Nino Farina "Formula-1" yarışının ilk qalibi kimi tarixə düşmüşdür. Birincilik uğrunda mübarizədə onun əsas rəqibi komanda yoldaşı, argentinalı Xuan Manuel Fanxio olmuşdur. Lakin sonralar Fanxio bu məğlubiyyətin əvəzini yetərincə çıxmışdır. Belə ki, o, karyerası ərzində 5 dəfə (1951-ci, 1954-cü, 1955-ci, 1956-cı və 1957-ci illər) dünya çempionu adını qazanmaqla rəqiblərinə aman verməmişdir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Serxio Peres Azərbaycan qran-prisini səbirsizliklə gözləyir

**Serxio Peres ("Red Bull Racing") Monakoda yürüş uikendinin yekunları və 2018-ci ildə podiumuna qalxdığı Azərbaycan qran-prisindən gözləntiləri barədə fikirlərini bölüşüb. O, Monakoda göstərdiyi nəticədən razı qaldığını bildirmişdir: "Şadam ki, nəhayət, yaxşı nəticə əldə etdim. Özü də şənbə günü uğursuz təsnifat yürüşündən sonra".**



"Red Bull Racing"in pilotu Monako yürüşünün "Formula-1" qran-priləri tarixində ən qısa yürüş olduğunu qeyd edərək 78 dövrə boyunca ayıq-sayıqlığı saxlamağın asan olmadığını nəzərə çarpdırmışdır: "Bu, psixoloji baxımdan çox ağır yürüşdür. Monakoda bolidi imkanların son həddində idarə etmək və qoruyucu baryerlərə çırpmamaq həmişə çətin olub. Hücuma nə vaxt keçib-keçməməyi başa düşmək lazımdır. Bu, uğurun açarıdır. Yürüşün nəticəsi komandanı ruhlandırdı, biz eyni uğura nail olmağa çalışacağıq. Lakin yadda saxlamaq lazımdır ki, hələlik cəmi beş yürüş geridə qalıb, irəlidə isə bizi uzun yol gözləyir".

Peres Bakıda artıq bir dəfə podiuma qalxmışdır. O, Bakı şəhər halqasını bəyəndiyini bildirmişdir: "Bakıda keçiriləcək qran-prini səbirsizliklə gözləyirəm və ümidvaram ki, təsnifat yürüşündə əla çıxış edəcəyik. Biz artıq sübut etmişik ki, yürüş tempində ən yaxşı komandadan heç də geri qalmırıq. Təsnifatda sürət lazımdır və o halda hər şey qaydasında olacaq". Pilot əlavə etmişdir ki, bu il "Formula-1" üzrə dünya çempionatında yalnız beş yürüş geridə qalıb. Ona görə də indi hansı mövqe tutmaq əhəmiyyətli deyil: "Önəmlisi odur ki, biz Əbu-Dabidə mövsümü necə başa vuracağıq. Diqqətimizi iş üzərində cəmləşdirməliyik - son aylarda etdiyimiz kimi".

## Maks Ferstappenin məqsədi Bakıda podiuma qalxmaqdır

**Maks Ferstappen Azərbaycan qran-prisindən əvvəl verdiyi müsahibədə Monakodakı qələbəsini xatırladaraq Bakı şəhər halqasında öz bolidindən nələr gözləməsi barədə söhbət açmışdır. O, Monakodakı yürüşdə qalib gəlib karyerasında ilk dəfə "Formula-1"in şəxsi hesabında liderlik etməsi barədə təəssüratını bölüşmüşdür.**



Ferstappen bildirmişdir ki, əvvəllər Monakoda podiuma qalxmadığına görə qazandığı qələbə çox xoş idi: "Çempionatda liderlik etmək əladır, lakin mövsümün final yürüşündən sonra irəlidə olmaq çox mühümdür - yalnız bu, əhəmiyyət kəsb edir. Komanda yaxşı formadadır və belə nəticələr mövsümə əla başlamağımızı nümayiş etdirir. Bununla belə, hücuma keçməyi davam etdirmək, sürəti artırmaq və daha yaxşı olmaq lazımdır. "Formula-1"də ideal olmaq mümkün deyil, çünki burada heç kəs bir yerdə durmur. Biz indiyədək kiçik səhvlər buraxmışıq, lakin bunlar o qədər də ciddi deyil. Məhz buna görə biz liderlik edirik, amma bunu da bilirik ki, vəziyyətin çox tez dəyişməsi mümkündür".

Pilot Monako uik-endində qarşılaşdığı çətinliklərdən də söz açmışdır: "Cümə axşamı məşqlər zamanı bizdə problemlər yarandı. Lakin şənbə üçün bolidin saz vəziyyətdə olmasından ötrü komanda çox səy göstərdi. Biz uik-endə yaxşı başlaya bilmədik, ona görə də bizə çətin idi. Lakin biz bütün məlumatları təhlil etdik, bolidin şənbə günü rəqabətqabliyyətli olmasına nail olduq və bunun sayəsində mübarizə aparmağı bacardıq. Monakoda səhvə yol vermək çox asandır - hər dövrədə yüksək dərəcədə ehtiyatlı olmaq tələb edilir. Bazar günü liderlik etmək və hər şeyi nəzarətdə saxlamaq çox xoş idi. Mən Monakodakı ilk qələbəmi əldən buraxmaq fikrində deyildim".

Ferstappen Bakıda nələr gözləməsi barədə danışarkən qeyd etmişdir ki, Azərbaycan paytaxtında trass yaxşıdır: "Mən orada heç vaxt podiuma qalxmamışam, lakin bunu dəyişməyin vaxtı çatıb. Görək biz hansı dərəcədə rəqabətqabliyyətli olacağıq. Lakin mən "Mercedes"in heyətinin yaxşı formada qayıdacağına ümid edirəm".

## Okonun hədəfi ilk onluqda yer almaqdır



"Formula-1" üzrə dünya çempionatının iştirakçısı olan "Alpine" komandasının pilotu Esteban Okon Azərbaycan qran-prisində ilk onluqda yer almağı hədəfləyir.

Mətbuata açıqlamasında Bakı Şəhər Halqasında yarışmaqdan zövq aldığını bildirən Okon buradakı trekin konfiqurasiyasının uzun hissələri və çətin dar döngələri ilə çox maraqlı olduğunu vurğulamışdır: "Bakı trekində yarışmaq çox xoşuma gəlir. Monakoda qısa dairəli və ötmək üçün çətinlik yaradan şəhər trasında yenicə mübarizə aparmışıq. Ancaq Bakı treki bunun tam əksidir, dairə uzundur və ötmə əməliyyatları çox əlverişlidir. Şəhər yollarında atmosfer əladır. Divarlar yaxın olduğundan sürəti daha çox hiss edirsən".

Azərbaycan qran-prisindən gözləntiləri barədə danışan pilot demişdir: "Ardıcıl dörd yarışda, o cümlədən Monakoda xal qazandığım üçün əhvalım çox yaxşıdır. Bakıda bu tendensiyanı davam etdirmək istəyirəm. Bakıda ilk onluqda daha yüksək mövqelər tutmaq istəyirik".

## "Alpine F1" Bakıda yüksək nəticə qazanacağına inanır



"Monakoda komandamız heç də yaxşı çıxış etmədi, buna görə də indi Bakıda keçiriləcək yürüşə maksimum yaxşı hazırlaşmaq və buraxılan səhvləri nəzərə almaq lazımdır". Bunu "Alpine F1" komandasının icraçı direktoru Martsin Budokovski müsahibəsində etiraf etmişdir.

Budokovski bildirmişdir ki, Portuqaliya və İspaniyada ümidverici nəticələrdən sonra çıxışları istədikləri kimi olmadı və komandada bunu gizlətmirlər: "Doğrudur, xal qazana bildik, ancaq əsas rəqiblərimizlə müqayisədə göstərdiyimiz nəticələrdən narazıyıq. Baş verənlərdən nəticə çıxarmalıyıq və bu bizə lazım olacaq".

İcraçı direktor komandasının Bakı mərhələsinə hazırlığı barədə sualı cavablandırarkən qeyd etmişdir ki, Azərbaycan paytaxtında uzun məsafəli düz yol və sürətli seksiyalar var: "Modernləşmə planına uyğun olaraq, Bakıya bir neçə yeniliklə gedəcəyik. Ona görə də hazırda Enstoundakı bazada çalışan hər kəs üçün gərgin dövrdür, hər iş vaxtında görülməlidir. Biz paralel olaraq ətraflı təhlil apardıq və simulyatorda işlədik ki, Monakoda bizə mane olan problemləri Bakı yürüşündən qabaq daha yaxşı araşdıraq və onların bir daha baş verməməsini təmin edək. Bundan əvvəl gördük ki, Bakıda yürüş hadisələrlə zəngin ola bilər. Əsas odur ki, biz hər uik-enddə maksimum nəticəyə nail olaq. Məqsədimiz liderlərə bacardığımız qədər yaxın olmaqdır".

## Azərbaycan qran-prisində ilk dəfə ən yumşaq şinlərdən istifadə olunacaq




Bu il "Pirelli" şirkəti ilk dəfə olaraq "Formula-1" çempionatının Azərbaycan mərhələsi üçün ən yumşaq tərkibli şinlər hazırlamışdır: "Hard" qismində C3, "Medium"da C4, "Soft"da isə C5 şinlərindən istifadə olunacaq. Bu tərkiblər 2019-cu ildə Bakı Şəhər Halqasında keçirilmiş yürüşdə istifadə edilmiş tərkiblərlə müqayisədə daha yumşaqdır.

İtaliya şirkəti bu məsələyə yanaşmanı belə izah etmişdir: 2019-cu ildə "Hard" növlü şinlərdən, ümumiyyətlə, yürüşdə istifadə olunmamışdır. Ona görə də əgər Bakıya daha yumşaq şinlər gətirilərsə, komandaların özlərinin taktiki sxemlərində onlardan istifadə etməsi mümkündür. Bu isə həmin sxemləri rəngarəng etməyə imkan verər. Bakı Şəhər Halqasının asfaltı aşağı abrazivliyi ilə seçilir. Odur ki, ən yumşaq tərkibləri optimal seçim hesab etmək olar.

Bununla yanaşı, pilotların özləri Azərbaycan paytaxtındakı trası belə xarakterizə edirlər: Monakodakı kimi mürəkkəbdir, sürət isə Monsdakı kimi yüksəkdir. Ümumən, bu həftəsonu "Formula-1"i nə gözləyəcəyi barədə təsəvvür yaratmaq olar.

"Pirelli"nin avtoyürüş bölməsinin rəhbəri Mario İzola fikrini bölüşərək demişdir: "Biz bir unikal trasdan digərinə yollanırıq. Monako ilə müqayisədə Bakıda bizi başqa çətinliklər gözləyir. Lakin oxşarlıq ondadır ki, əgər xoşagəlməz hallardan yayınmaq istəyirsinizsə, o halda bolidi son dərəcə dəqiqliklə idarə etməlisiniz. Biz tərkib xəttimizdə olan ən yumşaq şinləri Azərbaycana ilk dəfə aparırıq. Bu şinlərdən Monte-Karloda istifadə etmişdik. Seçim onunla bağlıdır ki, 2019-cu il Bakı mərhələsində "Hard" növlü şinlərdən, ümumiyyətlə, istifadə olunmadı. O vaxt komandalar orta sərtlikli şinlərdən fəal yararlanmışdı".

# INVITATION FOR BIDS

**Date: 02.06.2021**
**The Republic of Azerbaijan**
**Agricultural Competitiveness Improvement Project**
**Loan No: 8286-Az**
**Contract Title: Procurement of Equipment for Chemical-technology laboratory**
**Reference No.** (as per Procurement Plan): - **AZ-AACD-218772-GO-RFB-B2/G-CTL**

1. The Ministry of Agriculture of Azerbaijan Republic has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds toward payments under the contract for *Procurement of Equipment for Chemical-technology laboratory - AZ-AACD-218772-GO-RFB-B2/G-CTL.*

2. Agency for Agro Credit and Development under the Ministry of Agriculture/ Agricultural Competitiveness Improvement Project now invites sealed bids from eligible bidders for purchasing support to inspection and state control by provision of lab equipment.

Post-qualification requirements:

**(a) If Bidder is Manufacturer:**

i. The Bidder shall furnish documentary evidence that it meets the following financial requirement(s): The average annual turnover of the bidder for the last three years (2018 - 2019 - 2020) must exceed AZN 2 300 000 (two million and three hundred thousand manat) or equivalent. The averages of cash and cash equivalents at the beginning and end of year are positive in the last three years (2018 - 2019 - 2020). Zero (0) tax and social security liabilities.

(ii) Experience and Technical Capacity

1) During the past three (3) years, the Bidder must have completed at least two (2) successful contract with each Contract amount at least AZN 1 300 000 (one million and three hundred thousand manat) or equivalent involving the supply of similar type of goods for chemical or similar technology laboratory services.

**(b) If Bidder is not manufacturer:**

i. The Bidder shall furnish documentary evidence that it meets the following financial requirement(s): The average annual turnover of the Bidder for the last three years (2018 - 2019 - 2020) must exceed AZN 1 800 000 (one million and eight hundred thousands manat) or equivalent. The averages of cash and cash equivalents at the beginning and end of year are positive in the last three years (2018 - 2019 - 2020). Zero (0) tax and social security liabilities.

(ii) Experience and Technical Capacity

1) During the past three (3) years, the Bidder must have completed at least one (1) successful contract with Contract amount at least AZN 1 300 000 (one million and three thousand hundred manat) or equivalent involving the supply of similar type of goods for chemical or similar technology laboratory services.

More details of post-qualification requirements and evaluation criteria is set in the Bidding Documents.

Pre-bid meeting for registered Bidders is scheduled for **June 16, 2021, at 15:00 local time.**

3. Bidding will be conducted through the National Competitive Bidding procedures as specified in the World Bank's Guidelines: Procurement of Goods, Works and Non-Consulting Services under IBRD Loans and IDA Credits &Grants by World Bank Borrowers January 2011 Revised July 2014 ("Procurement Guidelines") and is open to all eligible bidders as defined in the Procurement Guidelines. In addition, please refer to paragraphs 1.6 and 1.7 setting forth the World Bank's policy on conflict of interest.

4. Interested eligible bidders may obtain further information from Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project,

Mr.AnarAzimov, a.azimov@akia.gov.az;anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com; n.isgandarova@akia.gov.az nargiz.acip@gmail.com; and inspect the bidding documents during office hours from 09.00 to 18.00 at the address given below.

5. A complete set of bidding documents in English may be purchased by interested eligible bidders upon the submission of a written application to the address below and upon payment of a nonrefundable fee of 300 AZN or equivalent. The method of payment will be bank transfer or direct deposit to the specified account number:

Beneficiary: Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project

Beneficiary's Tax ID: 1700428481

Beneficiary's bank: International Bank of Azerbaijan Open Joint Stock Company, Premier Customer Services Branch

S.W.I.F.T: IBAZAZ2X

Bank Code: 805250

Bank's Tax Code: 9900001881

Corr. acc: AZ03NABZ01350100000000002944 with Central Bank of Azerbaijan (for AZN)

Corr. acc: 36083186 with Citibank N.A, New York, NY; SWIFT code: CITIUS33XX (for USD)

Beneficiary's Account in AZN: AZ03IBAZ38090069449330335120

Beneficiary's Account in USD: AZ73IBAZ38190078409330335120

The document will be sent by surface mail or courier for local delivery.

6. Bids must be delivered to the address below on or before **14:45 local time, July 01, 2021.** Electronic bidding will not be permitted. Late bids will be rejected. Bids will be publicly opened in the presence of the bidders' designated representatives and anyone who choose to attend at the address below on **15:00 local time, July 01, 2021.**

7. All bids must be accompanied by a Bid Security of: **35 000 AZN**

8. The address(es) referred to above is(are):

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**For submission of bids: 5th floor**
**For opening of bids: 5th floor, conference room**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**AZ1108, Ziya Bunyadov avenue 1965, Chinar Park Business Center, Baku, Azerbaijan**
**Tel: (+99412) 5250117/3015**
**Email:** a.azimov@akia.gov.az; anarazim@gmail.com; gunelsafarliyeva@gmail.com; n.isgandarova@akia.gov.az; nargiz.acip@gmail.com; Web site: www.akia.gov.az

---

"M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi" Publik Hüquqi Şəxs "Xüsusiləşdirilmiş Angioloji Mərkəz" hüquqi şəxsin ona qoşulması yolu ilə yenidən təşkil edilsin.

"K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu" Publik Hüquqi Şəxs "Uşaq Nevroloji Xəstəxanası" Publik Hüquqi Şəxsin və "6 nömrəli Uşaq Klinik Xəstəxanası" hüquqi şəxsin ona qoşulması yolu ilə yenidən təşkil edilsin.

---

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs tərəfindən icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində xidmət alan vətəndaşların məmnunluğunu ifadə edən bədii janrda videoçarxların hazırlanması xidmətinin satın alınması məqsədilə 23 aprel 2021-ci il tarixdə elan olunmuş elektron açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs tərəfindən reklam lövhələrinin üzərində yerləşdiriləcək məlumatların məzmununun və dizayn konsepsiyasının hazırlanması xidmətinin satın alınması məqsədilə 23 aprel 2021-ci il tarixdə elan olunmuş elektron açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

---

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu Xidməti geyim formalarının satın alınması üzrə *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 17 iyun 2021-ci il saat 18:00-dən gec olmamaq şərtilə AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti 165 ünvanına təqdim etməlidirlər.

Təklif olunan qiymət kotirovkaları malların qiymət dəyərindən başqa, nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla göstərilməlidir.

Hər bir iddiaçı yalnız bir qiymət kotirovkası təqdim edə bilər və onun öz kotirovkasını dəyişməsinə icazə verilmir.

Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri Tender komissiyası tərəfindən qəbul olunmur və açılmadan geri qaytarılacaqdır.

Tələb olunan mallara ən aşağı qiymət kotirovkası təqdim etmiş iddiaçı ilə satınalma müqaviləsi bağlanacaqdır.

Kotirovka təklifləri AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti 165 ünvanında **18 iyun 2021-ci il saat 10:00-da** açılacaqdır.

**Kotirovka sorğusu ilə əlaqədar suallar TSK2021@oilfund.az ünvanlı elektron poçta göndərilə bilər. Əlaqə telefonu: (+994 12) 498- 77 -53, əlaqələndirici şəxs: Nailə Məmmədli (dax.: 9005).**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

---

# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC* (012) 440-46-94, (012) 441-19-91
*"Azərpoçt" ASC* (012) 598-49-55, (051) 225-02-13
*"Qaya" firması* (012) 566-77-80, (050) 214-40-53
*"Kaspi" MMC* (012) 432-39-55, (012) 510-82-24
*"Region Press" MMC* (055) 316-79-01, (050) 316-79-01
*"Səma-M" MMC* (012) 594-09-59
*"Ziya" LTD* (012) 497-76-96, (050) 306-77-22
*"Pressinform" MMC* (012) 598-49-52, (070) 340-01-00
*"City press" MMC* (055) 819-09-26

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

---

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir

**Ələt qəsəbəsində Azad İqtisadi Zonanın yaradılması ilə əlaqədar EATS-431-Ələt ATS-i-Azad İqtisadi Zona arası FO kabelinin çəkilməsi və çəkilən FO-96 kabelindən Sahil, Səngəçal, Qobustan, Ümid, Şıxlar ATS-ləri - Azad İqtisadi Zona arası kabel çəkilişi işlərinin görülməsi üçün (LSS-12811-XQ-4 və LSS-12811(Ə)-XQ-1,2,3,4,5,6,7) mal-materiallar və xidmətin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

206 (iki yüz altı ) manat (ƏDV daxil) iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN ödəniş" portalı vasitəsi ilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin Əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 23.06.2021-ci il saat 15:00-dək aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

**Tenderdə iştirak etmək hüququ və ixtisasını təsdiq edən sənədlər:**

- *iddiaçının qeydiyyatını təsdiq edən sənədlərin, nizamnamənin (əsasnamənin) notarial təsdiq edilmiş surətləri;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş, vaxtı keçimiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi və sosial orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının analoji satınalma üzrə iş təcrübəsini təsdiq edən sənəd (analoji layihələrin həyata keçirildiyi ən azı 3 (üç) müəssisə və təşkilatdan tövsiyə məktubu);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamənin notarial təsdiq edilmiş surəti);*
- *iddiaçının son 3 (üç) ilədək fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş mənfəət bəyannaməsi;*
- *iddiaçının hansı sahibkarlıq subyektinə aid olması ilə bağlı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən arayış;*
- *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 15 may tarixli 206 nömrəli qərarı ilə təsdiq edilmiş 4 nömrəli əlavə, tikintisinə icazəsi tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi üzrə işlərin 7.5 bəndinə (rabitə, radio və televiziya sistemlərinin layihələndirilməsi) əsasən tələb olunan lisenziyaların təqdim olunması;*
- *ixtisas uyğunluğunu müəyyən edən sənədlərin təqdim edilməsi;*
- *layihə üzrə çalışacaq hər bir işçinin əmək müqaviləsinin elektron portal üzərindən çıxarışın təqdim edilməsi;*
- *işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatları (konkret subpodratçının adı göstərilməklə);*
- *istehsalçıdan malların təchizetmə məktubu;*
- *iddiaçının tələb olunan mallar üzrə nümunə təqdim etməsi (nümunə tələb olunan sənədlərin vaxtı bitənədək təqdim edilməlidir);*
- *mal-materiallar üzrə mənşə, uyğunluq və digər sertifikatlar;*
- *işin icra müddəti müqavilə imzalanan gündən etibarən 3 ay müddətinə tam təhvil verilməlidir;*
- *tələb olunan FO kabellərin laboratoriya sınaq protokolu təqdim edilməlidir.*

İddiaçılar tender təklifini və bank təminatını **02.07.2021-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **05.07.2021-ci il saat 15:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

---

# Beynəlxalq aləm

## Bayden administrasiyası Trampın miqrasiya qərarını ləğv etdi

ABŞ-da eks-prezident Donald Tramp dövründə tətbiq olunmuş və qeyri-leqal miqrantların Meksikaya deportasiyası ilə nəticələnmiş qərar rəsmən ləğv edilmişdir. Bu barədə ABŞ-ın Daxili Təhlükəsizlik naziri Alexandro Mayorkas məlumat vermişdir.

Mayorkasın məlumatında deyilir ki, 2019-cu ilin yanvarından qüvvədə olan və humanitar müdafiə axtaran qeyri-leqal miqrantların Meksikaya deportasiyası ilə nəticələnmiş "Miqrantların müdafiəsi üzrə protokollar" proqramı qüvvədən düşür. Həmçinin qeyd olunur ki, sığınacaq almaq üçün verdikləri ərizələr rədd edildikdən sonra Meksikaya qaytarılmış xeyli sayda qeyri-leqal miqrant yaşayış yeri, dolanışıq və təhlükəsizliklə bağlı problemlərlə üzləşmişdir.

## Türkiyə hərbçiləri İran ərazisində PKK-nın 3 terrorçusunu zərərsizləşdirdilər

Türkiyənin Hakkari vilayətinin Yüksəkova rayonuna İran ərazisindən raket atılmışdır. Cavab zərbəsi nəticəsində PKK-nın 3 terrorçusu zərərsizləşdirilmişdir. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir. Məlumata görə, Türkiyə Silahlı Qüvvələrinin mühəndis-istehkamçı bölmələri briqadası (METİ) iş görərkən rayona raket atılmışdır.

METİ-nin komandası Yüksəkovada modul beton divarın tikintisində çalışan işçilərin təhlükəsizliyinin təmin olunması məqsədilə ərazini öyrənirmiş.

## Sudan Rusiya ilə hərbi bazanın yaradılması barədə sazişə yenidən baxacaq

Sudan hökuməti Rusiya Hərbi Dəniz Donanmasının Qırmızı dənizdə bazasının yaradılması barədə Moskva ilə əldə olunmuş sazişə yenidən baxmaq qərarına gəlmişdir. Bu barədə RBK Agentliyi Sudan Silahlı Qüvvələri Baş Qərargahının rəisi Məhəmməd Osman Hüseynə istinadən xəbər verir.

Məhəmməd Osman Hüseyn qeyd etmişdir ki, Sudan hökuməti ölkəyə ziyan vuran sazişləri imzalamaq istəmir. Onun dediyinə görə, saziş əvvəlki hökumət dövründə imzalanmışdır. Ölkə parlamenti sənədi təsdiqləməyə macal tapmamışdır və hazırda "Sudana xeyir gətirmək üçün" sazişə yenidən baxılır.

Baş Qərargahın rəisi əlavə etmişdir ki, son danışıqlarda Rusiya tərəfi müqaviləyə yenidən baxılacağı barədə məlumatlandırılmışdır.

## İtaliyada 100 nəfəri öldürmüş Covanni Bruska azadlığa çıxdı

Siciliyadakı "Koza Nostra" mafioz qruplaşmasının üzvü Covanni Bruska 25 illik həbs cəzasından sonra vaxtından əvvəl azadlığa buraxılmışdır. Bu barədə CNN telekanalı xəbər verir.

"Başkəsən" ləqəbi ilə tanınan Bruska 100 nəfərdən çox adamın, o cümlədən 14 yaşlı uşağın qətlində iştirak etdiyini boynuna almışdır. O, 1996-cı ildə həbs olunmuş və ömürlük həbs cəzasına məhkum edilmişdi. Bruska həbs müddətinin 26 ilini mafiya ilə mübarizə aparan hakim Covanni Falkoneni öldürdüyünə görə almışdı.

Ötən ayın 31-də cinayətkar 4 illik sınaq müddəti təyin olunmaqla vaxtından əvvəl azadlığa buraxılmışdır. Onun azadlığa çıxması istintaqla əməkdaşlıq etməsi ilə əlaqələndirilir.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## ALLAH RƏHMƏT ELƏSİN!

Mahmud Məmmədov Qeydiyyat və Notariat Baş İdarəsinin Notariat İdarəsinin rəisi Mehman Soltanova qardaşı

**ƏNVƏR SOLTANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5079
Sifariş 964
Qiyməti 40 qəpik